QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 129 (5601) 12 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**


# Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu artır

*Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti ilə görüşüb*



Səh 2


Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycan səfəri Türkiyə KİV-lərinin baş xəbəridir




5

Əli Həsənov: "Gəncədə yaranmış həssas dönəm cəmiyyətimizin dövlətin ətrafında daha sıx birləşməsini tələb edir"



4

Əli Əhmədov: "Sabitliyi pozmağa çalışanlar Azərbaycan xalqını hədəf seçiblər"



4

Siyavuş Novruzov: "Gəncədə baş verən hadisələr dövlətçilik əleyhinə törədilmiş cinayətdir"



6

Gəncədə iğtişaşların qarşısını alarkən şəhid olan polis əməkdaşları ilə vida mərasimi keçirilib



6

Polisi qətlə yetirənlərdən biri həbs edildi



6

7

Hikmət Hacıyev: "Azərbaycanın inkişafı Ermənistanla bərabər, bəzi xarici dairələri də ciddi narahat edir"



14

Müxalifət "liderləri"nin Gəncə blefi



16

Fransa millisi tarixində üçüncü dəfə finala yüksəlib



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 iyul 2018-ci il

# Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu artır

## *Prezident İlham Əliyev Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti ilə görüşüb*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb. Görüşdən sonra "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanma mərasimi olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı Avropa İttifaqının mənzil-qərargahına gəldi.***



Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk birgə foto çəkdirdilər. Sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun görüşü oldu.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulandı. Eyni zamanda, Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparıldı. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olundu. Prezident İlham Əliyev münaqişənin hazırkı vəziyyəti barədə məlumat verdi.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd etdi. Söhbət zamanı Azərbaycanda insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olundu.



Prezident İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycan ilə Avropa İttifaqı arasında bu gün paraflanacaq "Tərəfdaşlıq prioritetləri" sənədini yüksək qiymətləndirdilər, bu sənədin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağını məmnuniyyətlə qeyd etdilər.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun iştirakı ilə "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması mərasimi oldu.





Sənədi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Avropa Komissiyasının vitse-prezidenti, xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini parafladılar.

Sənədin birinci bəndində qeyd edildiyi kimi, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Eyni zamanda, birinci bənddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur.

Tərəfdaşlıq və qarşılıqlı hörmətə əsaslanan sənəd, həmçinin Azərbaycanın öz iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş siyasətini, ölkəmizdə iqtisadi islahatlar gündəliyinin dəstəklənməsi istiqamətində görülən işlərə Avropa İttifaqının mümkün töhfəsini qeyd edir.

Sənəddə Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olması, ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə verdiyi töhfə də Avropa İttifaqı tərəfindən vurğulanır. Eyni zamanda, "Cənub Qaz Dəhlizi" layihəsinin tezliklə tam yekunlaşmasının və bunun nəticəsində Avropa bazarlarına təbii qazın çatdırılmasının əsas prioritetlər sırasında olduğu bildirilir.

Sənəddə Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfənin əhəmiyyəti vurğulanır və bu sahədə Avropa İttifaqının Azərbaycanla əməkdaşlığa xüsusi marağı olduğu bildirilir. Eyni zamanda, paraflanan sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb. Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan Əfqanıstana müxtəlif sahələrdə davamlı dəstək göstərir

## Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin və Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub

***Iyulun 11-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin ölkəmizə səfərlərini və indiyədək keçirdiyi görüşləri məmnunluqla xatırladı.***

Prezident İlham Əliyev Bakıda Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısının çox uğurla keçirildiyini və yaxşı müzakirələrin aparıldığını bildirdi. Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani dövlətimizin başçısına yenidən prezident seçilməsi münasibətilə bir daha təbriklərini çatdırdı. Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.

Məhəmməd Əşrəf Qani Azərbaycanın Əfqanıstana müxtəlif sahələrdə göstərdiyi davamlı dəstəyə, həmçinin ölkəmizin Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi etdiyinə görə bir daha minnətdarlığını bildirdi.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, Azərbaycanın Əfqanıstana humanitar sahədə göstərdiyi dəstək xüsusi vurğulandı. Söhbət zamanı regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın Əfqanıstanda sülhün bərqərar edilməsi istiqamətində xüsusi rolu qeyd edildi. Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın perspektivləri müzakirə olundu.



# Avropa İttifaqının rəsmiləri Tvitter hesablarında Prezident İlham Əliyevin Brüsseldə Donald Tusk ilə görüşü və "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması barədə məlumatlar yayıblar

***Avropa İttifaqının rəsmiləri Tvitter hesablarında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşü və "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması barədə məlumatlar yayıblar.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, prezident Donald Tuskun Tvitterində vurğulanır: "Prezident İlham Əliyevlə bizim ikitərəfli əlaqələrimizin inkişafına xidmət edən uğurlu görüş oldu. Görüşdə Azərbaycandakı daxili vəziyyət və regional məsələlər barədə səmərəli müzakirələr keçirildi".

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti xidmətinin mətbuat katibinin Tvitterində aşağıdakı məlumat verilib: "Tərəfdaşlıq prioritetləri" sənədi Avropa İttifaqı və Azərbaycan arasında ikitərəfli gündəliyə yeni təkan verib".

Avropa Komissiyasının Qonşuluq Siyasətinin Baş Direktorluğunun Tvitterində qeyd edilib: "Avropa İttifaqı və Azərbaycan birgə daha güclüdürlər. Bu gün Avropa İttifaqı və Azərbaycan "Tərəfdaşlıq prioritetləri" sənədi üzrə danışıqları başa çatdırıb, münasibətlər gündəliyinə yeni təkan verilib".









# Əli Həsənov: “Gəncədə yaranmış həssas dönəm cəmiyyətimizin dövlətin ətrafında daha sıx birləşməsini tələb edir”

***Iyulun 3-ü axşam Gəncə Şəhər İcra hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı törədilmiş sui-qəsdlə bağlı BBC əməkdaşının sualına cavab verərkən, mən ilkin məlumatlardan çıxış edərək söyləmişdim ki, “bu, icra başçısına qarşı törədilmiş kriminal hadisədir, silahlı basqın olub, başçı və mühafizəçisi xəsarət alıb, hadisəni törədən şəxs yaxalanıb, hüquq mühafizə orqanları lazımi tədbirləri görürlər”. Belə ağır cinayət hadisələri zamanı müvafiq orqanların rəyi olmadan daha təfsilatlı şərhlə çıxış etməyi düzgün hesab etmədim. Bir dövlət məmuru kimi mənim həmin açıqlamam, əlbəttə ki, dövlətin hadisəni nəzarətə götürdüyü haqqında cəmiyyəti məlumatlandırmaq istəyi ilə əlaqəli olmuşdu.***



AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Facebook sosial şəbəkəsindəki səhifəsində Gəncə hadisələri barədə statusunda bildirib.

Əli Həsənov qeyd edib ki, iyulun 6-da Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı birgə məlumatda baş vermiş cinayətin terror, cinayəti törədən Yunis Səfərovun xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi bildirildi. Həm yerli, həm xarici mediada dərc olunmuş materiallarda sui-qəsdçinin həyat yoldaşının bir neçə dəfə yayımlanmış video-müraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi “sosial zülm”ə qarşı etiraz olaraq deyil, məhz Suriyada uğrunda döyüşdüyü “ideallar” naminə - şəriət dövləti bərqərar etmək üçün törətdiyi bəlli oldu.

Yunis Səfərov maddi təminatı yüksək olan bir ailənin üzvüdür, xarici vətəndaşdır və təbii ki, Azərbaycanın hansısa bölgəsində sosial ədalət naminə “solçu inqilabı” haqqında düşünməyib də. Açıqlamalardan göründüyü kimi, o, bu əmələ uzun illər hazırlaşıb, öz niyyətini həyata keçirmək üçün müvafiq məqam və tapşırıq gözləyib. Göründür, Mingəçevir şəhərində baş vermiş qəza ilə əlaqədar yaranmış gərginlik bunun üçün əlverişli məqam hesab edilib.

Prezidentin köməkçisi bildirib ki, sözügedən dairələrə yaxın xarici media və Facebook səhifələrinin hələ 2017-ci ilin əvvəllərində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı haqqında islamofob və antişiə imici yaratmaq cəhdləri Azərbaycan KİV-lərində müzakirə olunmuşdu. Bu ilin əvvəllərindən isə müəyyən reket nəşrlərdə Elmar Vəliyevin kobud rəftarı haqqında dərc edilən materialların sayında kəskin artım müşahidə edilmişdi. Görünür, ölkə əhalisinin dini mövzulara o qədər də həssas olmaması səbəbindən onun barəsində “sosial zülmün səbəbkarı” imici formalaşdırmağa ehtiyac varmış.

Hadisə baş verdikdən dərhal sonra radikal dini səhifələr və saytlar, Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılara bağlı KİV-lər Yunis Səfərovu yeni “gəncəbasar qisasçısı”, “qəhrəman” elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı iaşə müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, Leyla Yunusova kimi antimilli ünsürlərdən kömək gəldi. Rusiyada “talış separatçısı kimi ad-san qazanmış” İsmayıl Şabanovun, Hollandiyada eyni statusla yaşayan Ələkrəm Hümbətovun çevrəsi cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər. 2016-cı ilin Aprel döyüşləri zamanı erməni hərbi mundiri ilə ekranlardan Azərbaycanı, Azərbaycan əsgərini aşağılayan bir xain ona şeir də həsr etdi. Təsadüfi deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə sistemli ideoloji təxribatla məşğul olan bəzi xarici dini saytlar da bu günlərdə xüsusi canfəşanlıq göstərdilər. Kimə məxsusluğu bəlli olmayan Ruclip.ru saytının Youtube kanalı isə “Səda HD” kimi təqdim olunan şirkətin hazırladığı və üsyana səsləyən 5 klip - çağırış yayımladı.

Beləliklə, biz dövlətçiliyimizə qarşı separatçıların, radikal dindarların, yalnız pula və məişət komfortuna işləyən “iaşə müxalifəti”nin sinxronlaşdırılmış ideoloji təxribatı faktı ilə üz-üzəyik. Xarici anti-Azərbaycan qüvvələrin bu mənfur niyyətini anlamaq olar, ancaq daxildən onlara dəstək verən, polis əməkdaşlarına qarşı qəddar cinayətə bəraət qazandırmağa çalışan, yaxud da xaricə qaçıb erməni maliyyəsinin girovuna çevrilənlərin xain canfəşanlığını heç cür başa düşmək mümkün deyil.

Əli Həsənov yazır ki, belə həssas vəziyyət cəmiyyətimizin, bütün vətəndaşlarımızın milli dövlətçilik ətrafında daha sıx birliyini tələb edir. Xüsusən ictimai rəyə təsir imkanı olan insanlar - deputatlar, ziyalılar, tanınmış ictimaiyyət nümayəndələri, siyasi fəallar, media və QHT təmsilçiləri daha həssas davranmalı, iqtidara və ya onun ayrı-ayrı nümayəndələrinə bəslədikləri fərdi münasibətlərlə dövlət və Vətən mənafelərini bir-birindən fərqləndirməlidirlər.

XIX əsr Rusiyasında Vera Zasuliç adlı qadın ilk terror aktını həyata keçirəndə rus ziyalılarının müəyyən kəsimi onu qəhrəman kimi təqdim etməyə çalışmışdı və buna qismən nail də olmuşdular. Həmin terrorun mifləşdirilməsi ilə başlayan hadisələr sonrakı dövrdə Rusiyada üç inqilaba, milyonlarla insanın vətəndaş savaşında həlak olmasınadək inkişaf etmişdir.

İdeoloji təxribat deyəndə bir məqamı da yada salmaq yerinə düşərdi. Yaxın tariximizdə Azərbaycan əsilli xarici vətəndaşın törətdiyi ilk terror aktı Azərbaycan Dövlət Neft Akademiyası hadisəsidir. Amma həmin terror öz hədəfinə çatmamış, terror aktı, onu törədən şəxs və arxasındakı qüvvələr cəmiyyət tərəfindən birmənalı olaraq lənətlənmişdilər. Bu dəfə də terror Azərbaycan əsilli xarici vətəndaş tərəfindən törədilib. Amma qeyd etdiyim kimi, ona ictimai bəraət qazandırmaq üçün uzunmüddətli iş aparılıb. Bəzi sosial səhifələrdə “qalxın, digər şəhərlərdə də bunu təkrar edin” çağırışları terrorun yeni dalğasına çağırış kimi qiymətləndirilə bilər. Çünki bu aksiyalarda Azərbaycan vətəndaşlarının kütləvi iştirakını təmin etmək məqsədi güdülür.

Sonra Prezidentin köməkçisi yazır: “1970-ci illərin ikinci yarısında Türkiyədə solçular və sağçılar öz aralarındakı gərginliyi və dövlətlə anlaşılmazlıqları silah, “devrim” (əslində terror) gücünə həll etməyə başlayanda Süleyman Dəmirəlin dediyi məşhur bir ifadə yadıma düşdü: “Cümhuriyyət polisinə güllə atan əllər kəsilməlidir”. Əlbəttə ki, bununla müasir Türkiyədə heç də Osmanlı dövlətinin tarixinə aid olan sərt cəzanın birbaşa tətbiqi nəzərdə tutulmurdu, dövlətin məmurunu terror edənlərin sərt şəkildə cəzalandırılmasının vacibliyinə diqqət çəkilirdi.

Əminliklə deyə bilərəm ki, Azərbaycanda qarşıdurma, xaos yaratmaq istəyənlər qanunun sərt üzünü görəcəklər və ən ciddi şəkildə cəzalandırılacaqlar. Bununla yanaşı, təsadüfən, hadisə ictimai maraq kəsb etdiyinə görə öz iradələrinin əleyhinə olaraq bu əməlin iştirakçısına çevrilmiş hər kəsi bu yanlış addımlardan çəkinməyə dəvət edirəm”.

“Azərbaycan dövləti, dövlətçiliyi, milli maraqlarımız heç vaxt müzakirə mövzusu olmamalıdır”, - deyən Əli Həsənov bildirir ki, bu dəyərlərə təhlükə yarandıqda hər bir vətəndaş, hər bir azərbaycanlı öz qəti mövqeyini ortaya qoymalı, milli iradəsini nümayiş etdirməlidir. Buna görə də Azərbaycan dövlətinin terror və terror çağırışlarına qarşı atacağı sərt addımların ziyalılar, tanınmış ictimaiyyət nümayəndələri, vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən düzgün anlaşılmalı, geniş kütlələrə düzgün mesajlar verilməlidir. Hər hansı səbəb və ya bəhanə ilə terrora bəraət qazandırmaq cəhdləri yolverilməzdir, sosial səhifələrin aktiv iştirakçıları və KİV nümayəndələri yazı, rəy və şərhlərində müvafiq qanunvericiliyin tələblərini və dövlət maraqlarını unutmamalı, hadisələrə daha peşəkar və obyektiv yanaşmalıdırlar.

# Əli Əhmədov: “Sabitliyi pozmağa çalışanlar Azərbaycan xalqını hədəf seçiblər”

***“Gəncədə baş verən xoşagəlməz hadisələrdən istifadə edərək şəhərdə sabitliyi pozmağa çalışanların hədəfində bütün Azərbaycan xalqıdır. Azərbaycandakı sabitlik və əmin-amanlıq hər kəsin təhlükəsizliyinin əsasında dayanır. Hər birimiz bununla fəxr edirik. Ən başlıcası isə insanlar rahatdır, sakit yaşaya bilirlər. Lakin görünən budur ki, xalqımızın bu sakit həyatını gözü götürməyənlər baş qaldırmağa cəhd göstərirlər”.***



Bu fikirləri Trend-ə açıqlamasında Azərbaycan Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov deyib. Ə.Əhmədov bildirib ki, Gəncə sakinləri müdrik insanlardır, onlar şəhərin sakit həyatını pozmağa kiməsə imkan verməzlər:

“Çünki yaxşı bilirlər ki, bu gün yalançı “vətənpərvərlər”, “din əzabkeşləri” adı altında sabitliyi pozmağa çalışanlar və çağırış edənlər tamam başqa yerdən idarə olunur və ayrı məqsədlərə xidmət göstərirlər. Tökülən qan isə xalqın qanıdır. Həlak olan iki polis zabiti xalqın övladlarıdır, kiminsə övladı, kimlərinsə atası, qardaşı, həyat yoldaşıdır. Onların qanını tökən vətənpərvərlər, din əzabkeşi ola bilərmi? İnanıram ki, gəncəlilər müdrikliyini bir daha nümayiş etdirəcək, ara qarışdıranlara, qanunu pozanlara, sakit həyatımıza haram qatmaq istəyənlərə özləri layiqli cavab verəcək. Gəlin, hamımız ətrafımıza baxaq, dünyada baş verənləri, faciələri, tökülən göz yaşlarını yada salaq. Ölkəmizdəki sabitliyin qədrini bilək, ona xəyanət edənlərin qarşısına keçək. Sonra gec olar”.

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycanda sabitlik və əmin-amanlıq möhkəm dayaqlar üzərində qərar tutub: “Onu pozmağa heç kim cürət edə bilməz. Bir neçə ara qarışdırandan savayı hamı qanuna hörmət edir, sabitliyi qoruyur, dövlətin və dövlətçiliyin ətrafındadır”.

Qeyd edək ki, iyulun 10-da, saat 20 radələrində 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxs Gəncə şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstəriblər. Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanuna zidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstəriblər. Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə onların hüquqazidd əməllərinin qarşısı alınmaqla 40 nəfəri tutularaq Gəncə Şəhər Baş Polis İdarəsinə gətirilib, qalanları qaçaraq ərazini tərk ediblər. Görülmüş operativ tədbirlərlə təxminən 30 dəqiqə ərzində şəhərin mərkəzində asayiş tam bərpa edilib.

Qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən iki polis zabiti - Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid olublar. Cinayətin bütün iştirakçılarının və təşkilatçılarının müəyyən edilib məsuliyyətə cəlb olunmaları məqsədilə zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri həyata keçirilir.

# “Azərbaycan cəmiyyəti öz dövlətinin müdafiəsindədir”



“10 iyul axşamı Gəncənin mərkəzi meydanında baş verənlər dövlətçiliyimizə və stabilliyimizə qarşı yönəlmiş bir provokasiyadır”. SİA-nın verdiyi məlumata görə, bunu millət vəkili Aydın Mirzəzadə deyib.

Onun sözlərinə görə, qeyri-qanuni aksiyanın nə insan hüquqlarının müdafiəsi, nə də dinlə heç bir aidiyyatı yox idi: “İki nəfər yüksək rütbəli polis zabitinin qətlə yetirilməsi bunun düşünülmüş bir addım olmasına dəlalət edir. Bir müddət əvvəl Gəncənin icra hakimiyyəti başçısına, indi isə polis rəsmilərinə qarşı törədilən hadisələr Azərbaycanda çaşqınlıq və gərginlik salmaq istəyindən xəbər verir. Görünür xaricdə müəyyən anti-Azərbaycan dairələri Azərbaycanın inkişafı, müstəqil siyasəti sərf etmir. Onlar ölkə daxilində maraqlarını müdafiə edən qüvvələr də yarada bilməyiblər. Ona görə də terrora, qeyri-qanuni hərəkətlərə üstünlük verməyə, səbətsiz insanların əli ilə qarışıqlıq yaratmağa cəhd edirlər. Azərbaycan cəmiyyəti öz dövlətinin müdafiəsindədir, o heç zaman qara qüvvələrin arxasınca getməyəcək. Hadisələr göstərir ki, dövlətimizi, sabitliyimizi, inkişafımızı hər an qorumalıyıq və biz buna qadirik”.

# Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycan səfəri Türkiyə KİV-lərinin baş xəbəridir

***Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyulun 10-da Azərbaycan Respublikasına rəsmi səfəri qardaş ölkənin aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir. Bununla bağlı hazırlanan informasiyalarda səfərin tarixi əhəmiyyəti barədə geniş məlumatlar və şərhlər verilir.***

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyi səfərlə bağlı iki videomaterial və 29 foto yayıb. Ölkə mediası bu videomateriallardan və fotolardan geniş istifadə edib. Prezident Rəcəb Tayyib Ərdoğanın ilk səfərini Azərbaycana edəcəyi barədə ilkin xəbərlər yayıldıqdan sonra mövzunu gündəmdə saxlayan TRT HABER televiziya kanalı iyulun 10-da və 11-də bütün xəbər buraxılışlarında bu barədə maraqlı reportajlar və informasiyalar verir.







"Türkiyə", "Sabah", "Milliyyət", "Yeni şəfəq", "Hüriyyət", "Posta", "Axşam", "Star", "Yeni söz", "Akıt", "Vatan" və digər qəzetlərdəki materiallarda Türkiyənin dövlət başçısının ölkəmizə səfərinə, o cümlədən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuata bəyanatlarla çıxışlarına, eləcə də ali qonağın Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarı önünə əklil qoymasına, Şəhidlər xiyabanını, həmçinin şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət etməsinə dair məlumatlara geniş yer verilib. "İki gündə 6 min 100 kilometr" sərlövhəsi ilə səfər barədə türkdilli oxuculara məlumat verən "Türkiyə" qəzeti prezidentlərin mətbuata bəyanatlardakı fikirlərini ətraflı şərh edib.







"Yeni Şəfəq" qəzetinin "Qardaş ziyarəti" sərlövhəsi ilə təqdim olunan yazıda Türkiyə Prezidentinin Azərbaycana səfəri geniş işıqlandırılıb. "İlk ziyarət qardaşa" başlığı ilə təqdim olunan analitik yazıda isə dövlət başçılarının mətbuata bəyanatlarındakı əsas fikirlər alt başlıqlar kimi təqdim edilib. Yazıda Azərbaycan və Türkiyənin liderliyi həyata keçirilən beynəlxalq layihələrin tarixi əhəmiyyəti, bütün sahələr üzrə əməkdaşlığın nəticələri, həmçinin qarşıda duran vəzifələr və s. oxucuların diqqətinə çatdırılır.

"Milliyyət" və "Vatan" qəzetlərində "TANAP çox stratejidir" sərlövhəsi ilə təqdim olunan məqalədə digər məsələlərlə bərabər, diqqəti Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Dağlıq Qarabağ və Naxçıvanla bağlı problemləri aradan qaldırmaq üçün Türkiyə olaraq əlimizdən gələni etdik. Bu məsələni daim diqqət mərkəzində saxladıq, bundan sonra da saxlamaqda qətiyyətliyik" fikrinə yönəldib. "Milliyyət" qəzetində dərc olunan yazıda Prezident İlham Əliyevin "Dünya miqyasında Türkiyə Ordusu ən güclü ordular sırasındadır. Hərbi sahədə bizim əməkdaşlığımız çox uğurla davam edir. Bu il hərbçilərimiz arasında yeddi hərbi təlim keçiriləcəkdir, onlardan üçü keçirilib. Azərbaycan Türkiyədən böyük sayda hərbi texnika alır. Ötən ay Azərbaycanda keçirilmiş hərbi paradda bu texnikanın bir hissəsi göstərilmişdir" ifadəsinə yer verib.

"Naxçıvana Türkiyə şəfqəti" sərlövhəsi ilə mövzunu ilk səhifəsinə çıxaran "Axşam" qəzeti illərdən bəri təcavüzkar Ermənistan tərəfindən blokadada saxlanılan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi və inkişafı üçün iki qardaş ölkənin birgə səylərini oxucuya çatdırmağa müvəffəq olub. Siyasi şərhçi Hikmət Genc "Axşam" qəzetinin elektron versiyasında yayılan video-reportajda böyük siyasi və dövlət xadimi, ulu öndər Heydər Əliyevin tarixi missiyasını yüksək dəyərləndirərək vurğulayıb ki, Ulu Öndərimizin müəyyən etdiyi inkişaf strategiyası Azərbaycan və Türkiyə qardaşlığının qorunmasını, ölkələrimizin enerji təhlükəsizliyini təmin edib.

"Demokratik inqilab" sərlövhəsi ilə səfər təəssüratını oxucularla bölüşən "Star" qəzeti iki dövlət başçısının səmimi görüşünü əks etdirən fotonun altında "TANAP iki ölkə üçün də həyatdır" ifadəsini təqdim edib. Qəzet, həmçinin ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət" fikrinin reallığı olduğunu diqqətə çatdırır. Səfərin mahiyyəti tanınmış ekspertlər tərəfindən də şərh olunmaqdadır.

***Sabir Şahtaxtı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***İstanbul***

# Gəncədə iğtişaşların qarşısını alarkən şəhid olan polis əməkdaşları ilə vida mərasimi keçirilib

***Gəncədə iğtişaşların qarşısını alarkən şəhid olan polis əməkdaşları ilə iyulun 11-də vida mərasimi keçirilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhid polis əməkdaşları - Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov ilə Gəncənin Şəhidlər xiyabanında keçirilən vida mərasimində daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov, nazirliyin digər yüksək vəzifəli şəxsləri, Gəncə Şəhər İcra Hakimiyyətinin rəhbərliyi və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.***









Daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov vida mərasimindəki çıxışında bildirib ki, polis əməkdaşları Gəncədə və ölkədə sabitliyin qorunması üçün öz andlarına sadiq qalıb, dövlətçiliyə sədaqət göstəriblər. Onlar şəhidlik zirvəsinə yüksələrək minlərlə insana bildiriblər ki, cinayətkarlığa aman verilməyəcək.

Daxili işlər nazirinin müavini deyib ki, şəhid olan zabitlər polis şərəfini ləyaqətlə qoruyublar. Hər iki polis əməkdaşı uzun illər daxili işlər orqanlarında şərəflə xidmət ediblər. Onlar nümunəvi xidmətləri ilə sübut ediblər ki, əsl polis necə olur. Hər iki polis qardaşımızı bu gün son mənzilə yola salırıq. Bu, bizim üçün, gəncəlilər üçün böyük itkidir. Lakin mən inanıram ki, İlqar Balakişiyev və Səməd Abbasovun xatirəsi heç vaxt yaddan çıxmayacaq. Onların keçdiyi şərəfli xidmət yolu yoldaşları, Gəncə sakinləri tərəfindən daim xatırlanacaq.

Vida mərasimində çıxış edən Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi Faiq Şabanov bildirib ki, iyulun 10-da radikal dini yönümlü bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısındakı meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərib. Qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən polis zabitləri İlqar Balakişiyev və Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhidlik zirvəsinə yüksəliblər.

Hər iki polis əməkdaşının uzun illərdən bəri daxili işlər orqanlarında çalışdığını vurğulayan Faiq Şabanov deyib ki, onlar həmişə Azərbaycan dövlətinə sədaqətlə xidmət ediblər: "Ona görə də hər iki polis əməkdaşı xidmətlərində fərqləndiklərinə görə müxtəlif illərdə təltif olunublar. Həm İlqar Balakişiyevin, həm də Səməd Abbasovun qətlə yetirilməsi bütün polis əməkdaşları üçün böyük itkidir. Allah hər iki polisimizə rəhmət eləsin".

AMEA-nın Gəncə Bölməsinin akademik-katibi Fuad Əliyev Gəncədə asayişin qorunması və qanlı iğtişaşın qarşısının alınması zamanı xidməti vəzifələrini yerinə yetirən və Azərbaycan polisinin adını uca tutan hər iki şəhidin ruhunu bütün şəhər sakinlərinin minnətdarlıqla yad etdiklərini deyib.

"Bu gün Azərbaycan sürətlə inkişaf edir, ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür. Ona görə də Azərbaycanın bu cür inkişafını istəməyən qüvvələr öz məkrli əməllərini həyata keçirmək üçün belə təxribata əl atıblar. Onlar öz əməllərini həyata keçirmək üçün Gəncə şəhərini seçiblər. Lakin niyyətlərinə nail olmadılar. Mən ölkədə, o cümlədən Gəncədə yaradılan əmin-amanlığa, sabitliyə görə Azərbaycan polisinə minnətdarlığımı bildirir, şəhid polislərimizə Allahdan rəhmət diləyirəm", - deyə Fuad Əliyev qeyd edib.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru İbrahim Cəfərov çıxışında diqqəti bu il Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrin yaradılmasının 100 illiyinin qeyd olunması, iyunun 26-da hərbi paradın keçirilməsinə və ən müasir silahların həmin paradda nümayiş etdirilməsinə yönəldərək bildirib ki, dövlətimizin hərbi qüdrətinin nümayişi xaricdə və daxildə olan pozucu qüvvələr tərəfindən narahatlıqla qarşılanıb. Təsadüfi deyil ki, həmin qüvvələr respublikamızda, eləcə də onun ikinci böyük şəhəri olan Gəncədə sabitliyi pozmaq, iğtişaş yaratmaq üçün fəaliyyətə keçiblər. Şəhərdə törədilən cinayət əməlləri, ümumilikdə, ölkədə xaos, anarxiya yaratmaq istəyən qüvvələrin məqsədinə xidmət edir. Bu əməllər polisə qarşı deyil, Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönələn xain əməllərdir. Bu gün hər bir gəncəli, hər bir Azərbaycan vətəndaşı Prezidentimizin yanındadır. Mən əminəm ki, Azərbaycanın dövlət müstəqilliyinə uzanan bu çirkin əllər qısa zamanda kəsiləcək, cinayətkarlar qanun qarşısında cavab verəcəklər.

Sonra çıxış edən Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Elnur Rzayev, "Gəncənin səsi" qəzetinin baş redaktoru Rəfiqə Sadıqova, Gəncə Şəhər Gənclər və İdman Şöbəsinin rəisi Müşfiq Cəfərov və şəhid Səməd Abbasovun qardaşı, Qafqaz Müsəlmanları İdarəsinin Gəncə bölgəsi üzrə səlahiyyətli nümayəndəsi hacı Tahir Abbasov çıxış edərək bildiriblər ki, Azərbaycan polisi cinayətkarlara öz çirkin əməllərini həyata keçirməyə heç zaman imkan verməyəcək. Bu cür mənfur əməllərin qarşısı qətiyyətlə alınacaq. Ölkədə əmin-amanlığın, sabitliyin pozulmasına imkan verilməyəcək. İndi bütün gəncəlilərin əsas istəyi həmin qüvvələrin tez bir zamanda aşkarlanması, zərərsizləşdirilməsi və qanunla cinayət məsuliyyətinə cəlb edilməsidir. Gəncəlilər müstəqil dövlətimizin, dövlətçiliyimizin və Prezidentimizin daim yanında olub və olacaqlar. Vida mərasimindən sonra şəhid polis əməkdaşları Gəncədəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Qeyd edək ki, iyulun 10-da saat 20 radələrində 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərib. Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanunazidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstəriblər. Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə onların hüquqazidd əməllərinin qarşısı alınıb, 40 nəfər tutularaq Gəncə Şəhər Baş Polis İdarəsinə gətirilib, qalanları qaçaraq ərazini tərk ediblər.

Qanunsuz hərəkətlərin qarşısı alınarkən xidməti vəzifələrini yerinə yetirən polis zabitləri İlqar Balakişiyev və Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid olublar.

# Siyavuş Novruzov: "Gəncədə baş verən hadisələr dövlətçilik əleyhinə törədilmiş cinayətdir"



"Gəncədə baş verən hadisələr dövlətçilik əleyhinə törədilmiş cinayətdir". SİA-nın məlumatına görə, bu barədə açıqlamasında Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, millət vəkili Siyavuş Novruzov deyib.

Millət vəkili bildirib ki, bu cinayəti törədənlər layiqli cəzalarını almalıdır: "Azərbaycan kifayət qədər oturuşmuş bir dövlətdir. Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan bu dövlət möhkəm əsaslar üzərində qurulub və bu dövləti heç kim sarsılda bilməz. Bu cür hərəkətlər bizi yolumuzdan döndərə bilməz. Cinayətkarlar cəzalandırılmalıdır. Hüquq-mühafizə orqanları bu məsələni ciddi araşdıraraq kökünü tapmalıdır".

S.Novruzov qeyd edib ki, məsələnin haradan qaynaqlandığı, hansı ölkədən tapşırıqların alındığı müəyyən edilməli və qarşısı dərhal alınmalıdır: "Mən komitə sədri kimi bəyan edirəm ki, istər Qurani-Kərimdə, istərsə də şəriətdə insan öldürmək qadağandır. Bunlar hamısı İslam dininə ziddir. Kim bunu din pərdəsi altında həyata keçirmək istəyirsə, o, səhv yoldadır və həmin şəxsin dinə ümumiyyətlə aidiyyəti yoxdur. Ümumilikdə, bütün müsəlmanlar bir-birinə qardaş deyirlər. Əgər biz bir-birimizi qardaş hesab ediriksə, qardaş qardaşı necə öldürə bilər? Bu, İslamın prinsipidir. Kim bu fundamental prinsipdən kənara çıxırsa, o, İslama deyil, xurafata xidmət edir. Onun törətdiyi əməl də həm müasir dövrün qanunları, həm də İslam hüququ ilə heç cür bəraət ala bilməz".

# Kestutis Jankauskas: "Azərbaycan Avropa İttifaqı üçün ən iri elektron ticarət potensialı olan ölkədir"




Azərbaycan Avropa İttifaqı üçün ən iri elektron ticarət potensialı olan ölkədir. AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskas "Azərbaycanda elektron ticarət: mövcud vəziyyət və inkişaf perspektivləri" mövzusunda keçirilən tədbirdə deyib. O bildirib ki, Azərbaycanda böyük perspektivlər var. Azərbaycan Avropa İttifaqı üçün böyük tranzit potensialına malik ölkədir. Burada dəniz, su və dəmir yolları xətləri var. Bu xidmətlər də getdikcə rəqəmsallaşır. Səfir qeyd edib ki, Avropa İttifaqı bu sahədə öz təcrübəsini Azərbaycana gətirə bilər: Hazırda Avropada əksər xidmətlər onlayndır. Azərbaycan da bu istiqamətdə inkişaf etməlidir. Avropa İttifaqı bu sahədə Azərbaycana dəstək verməyə hazırdır.

# Polisi qətlə yetirənlərdən biri həbs edildi



Qasımov Fərrux Xəqani oğlu

Respublikanın hüquq-mühafizə orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 10-da Gəncə şəhərində baş vermiş qanunsuz aksiyanın ən fəal iştirakçılarından və xidməti vəzifələrini yerinə yetirən polis zabitlərindən birinin qətlində şübhəli bilinən Qasımov Fərrux Xəqani oğlu vətəndaşlarımızın yaxından köməkliyi ilə tutularaq istintaqa təhvil verilib.

Bu cinayətin törədilməsində şübhəli bilinən digər şəxslərin də tutulması istiqamətində zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Azərbaycanda sosial təminat sahəsində görülən işlər yüksək qiymətləndirilib



İyulun 11-də Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov ölkəmizdə səfərdə olan Beynəlxalq Sosial Təminat Assosiasiyasının prezidenti və Almaniyanın İş Yerində Bədbəxt Hadisələrdən Sosial Sığorta Təşkilatının rəhbəri Yoakim Bröyerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Azərbaycan hökuməti ilə Beynəlxalq Sosial Təminat Assosiasiyası arasında inkişaf edən əlaqələrdən danışıb. Bu səfərin əməkdaşlığımızın möhkəmlənməsinə və daha da inkişaf etməsinə öz töhfəsini verəcəyinə əminlik ifadə edən Əli Əhmədov ölkəmizdə sosial təminat sahəsində aparılan islahatlara diqqət çəkib. Bildirib ki, Azərbaycanda bu sahədə xeyli işlər görülüb, sosial təminat sisteminin təkmilləşdirilməsi və şəffaflaşdırılması istiqamətində vacib addımlar atılıb.

Baş nazirin müavini ölkəmizin Beynəlxalq Sosial Təminat Assosiasiyasının təcrübəsindən yararlanmaqda maraqlı olduğunu vurğulayıb. Sonra Yoakim Bröyer ikitərəfli münasibətlərin yeni istiqamətləri barədə danışıb və bu sahədə Azərbaycanla təcrübələrini bölüşməkdən məmnun olduqlarını qeyd edib. Qonaq Azərbaycanın sosial təminat sahəsində gördüyü işləri yüksək qiymətləndirdiklərini bildirib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Polis general-leytenantı Oruc Zalov: "Gəncədə şəhid olan polis əməkdaşları dövlətçiliyə sadiqlik göstəriblər"



Polis əməkdaşları Gəncədə və ölkədə sabitliyin qorunması üçün öz andlarına sabiq qalıb, dövlətçiliyə sadiqlik göstəriblər. Onlar şəhidlik zirvəsinə yüksələrək minlərlə insana bildiriblər ki, cinayətkarlığa aman verilməyəcək.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu sözləri Gəncədə iğtişaşların qarşısını alarkən şəhid olan Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov ilə keçirilən vida mərasimində daxili işlər nazirinin müavini, polis general-leytenantı Oruc Zalov bildirib.

Daxili işlər nazirinin müavini deyib ki, şəhid olan zabitlər polis şərəfini ləyaqətlə qoruyublar. Hər iki polis əməkdaşı uzun illər daxili işlər orqanlarında şərəflə xidmət ediblər. İlqar Balakişiyev 35 il daxili işlər orqanlarında xidmət edib, qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirib, dəfələrlə Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən mükafatlandırılıb. İlqar Balakişiyev ulu öndər Heydər Əliyev tərəfindən "İgidliyə görə" medalı ilə təltif edilib. O, Gəncə şəhərinin sakinləri arasında böyük hörmətə malik olub. Nümunəvi xidmət göstərərək sübut edib ki, əsl polis işçisi necə olur.

Şəhid qardaşımız Səməd Abbasov da şərəfli bir xidmət yolu keçib. Nizami Rayon Polis İdarəsinin rəis müavini vəzifəsinə təyin edilən Səməd Abbasov daim kollektivdə nümunəvi xidməti ilə fərqlənib. Gəncə sakinləri olan hər iki polis qardaşımızı bu gün son mənzilə yola salırıq. Bu, bizim üçün, gəncəlilər üçün böyük itkidir. Lakin mən inanıram ki, İlqar Balakişiyev və Səməd Abbasovun xatirəsi heç vaxt yaddan çıxmayacaq. Onların keçdiyi şərəfli xidmət yolu yoldaşları, Gəncə sakinləri tərəfindən daim xatırlanacaq. İnanıram ki, gənclər onlardan nümunə götürüb ölkədə əmin-amanlığın qorunması üçün yeri gəlsə, canlarını belə əsirgəməyəcəklər. Ruhları şad olsun, ailələrinə səbir diləyirəm".

# Hikmət Hacıyev: "Azərbaycanın inkişafı Ermənistanla bərabər, bəzi xarici dairələri də ciddi narahat edir"



Gəncədə ictimai asayişi pozmaq istəyən bəzi qüvvələrin qarşısını alarkən şəhid olmuş polis zabitlərinin ailələrinə, yaxınlarına və həmkarlarına dərin hüznlə baş sağlığı veririk. Qısa müddət ərzində bu radikal təmayüllü şəxslərin qanunazidd əməllərinin qarşısı alınmışdır. Bu kimi provokativ və ölkəmizdə sabitliyi pozmaq məqsədi güdən uğursuz cəhdlər onu göstərir ki, Azərbaycanın inkişafı, güclənməsi, beynəlxalq nüfuzunun günbəgün artması Ermənistanla bərabər, bəzi xarici dairələri də ciddi surətdə narahat edir.

AZƏRTAC xəbər verir ki, bunu iyulun 11-də keçirdiyi mətbuat konfransında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. Hikmət Hacıyev deyib: "Ölkəmiz müharibə vəziyyətində olan dövlətdir. Arxa cəbhədə xidmət başında olan zabitə qarşı hücum ön xətdə qulluq edən əsgər və zabitlərə, bütün Azərbaycan xalqına xəyanətdir. Bu kimi destruktiv əməllərə bəraət qazandırmağa çalışan və qərb ölkələrində gizlənmiş milli satqınlar xalqımız qarşısında utanmalıdırlar. Ölkəmizə, xalqımıza və dövlətçiliyə qarşı bu kimi xəyanətkar əməllərə əl atan şəxslər qarşılarında Azərbaycan xalqını görəcəklər. Bütün gənclərimizi, o cümlədən Gəncədə yaşayan və daim dövlətçiliyin keşiyində olan gənclərimizi ayıq sayıq olmağa çağırırıq. Gəncədə doğulmuş, boya başa çatmış, orta məktəbi orada bitirmiş bir vətəndaş olaraq əminliklə deyə bilərəm ki, bu kimi marginal kiçik qrupların destruktiv fəaliyyətinə Gəncənin vətənpərvər gəncləri, Gəncə əhalisi heç zaman imkan verməz".

# Azərbaycan dövləti hər bir vətəndaşının yanındadır

***Azərbaycan dövlətinin prioritet istiqamət olaraq qəbul etdiyi sosialyönümlü siyasət əhalinin maddi rifahının yaxşılaşdırılmasına və sosial müdafiəsinin gücləndirilməsinə istiqamətlənmiş xəttdir. Həyata keçirilən tədbirlər nəticəsində, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbat və ehtiyacları yüksək səviyyədə ödənilib. Ölkə əhalisinin ən həssas təbəqəsi olan qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə diqqət artıb.***

Ölkəmiz üçün başlıca məsələ olan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətdə dövlət başçısı tərəfindən bütün təsir vasitələrindən istifadə edilir, beynəlxalq ictimaiyyətin və beynəlxalq təşkilatların diqqəti bu məsələyə yönəldilir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev dünya ölkələrində keçirilən görüşlərdə və tədbirlərdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatları və Azərbaycanın məruz qaldığı işğal faktını diqqətə çatdırır. Münaqişənin sağalmaz təsirlərinin minimuma endirilməsi üçün bütün imkanlardan istifadə edir, qaçqın və məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması, həyat şəraitinin yaxşılaşdırılması, onların sosial problemlərinin həlli üçün dövlətimiz tərəfindən ardıcıl tədbirlər görülür.

Prezident İlham Əliyevin 2004-cü il Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatına uyğun olan lazımi tədbirlər mərhələlərlə həyata keçirilir. Azərbaycanın bölgələrində məcburi köçkünlər üçün 100-ə yaxın müasir yaşayış kompleksi salınıb, salınan müasir qəsəbələrdə 150-dən artıq məktəb, 60 tibb mərkəzi və uşaq bağçası inşa olunub. Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirən Prezident İlham Əliyev tərəfindən 2003-cü ildən bu günə qədər 60-a qədər Fərman və Sərəncam imzalanıb. Qeyd olunan bu statistik rəqəmlər onun təsdiqidir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən inkişaf strategiyası və ölkədə uğurla reallaşdırılan yeni sosial-iqtisadi islahatlar, əhalinin digər təbəqələri kimi, məcburi köçkünlərin də həyat səviyyəsinin yüksəlməsinə öz müsbət təsirini göstərir.



Təbii ki, bu günədək qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlərlə yanaşı, hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda kifayət qədər çox məcburi köçkün ailəsinin yaşayır. Xatıladaq ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində, qaçqın və məcburi köçkünlər üçün müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. Məcburi köçkünlər üçün indiyədək 97 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. 265 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Təkcə ötən ilə 12 min köçkün mənzillə təmin olunub, bu il isə, 20 min köçkün yeni evlərlə təmin ediləcək. Cənab Prezident İlham Əliyevin çıxışlarının birində, qeyd etdiyi kimi, evlərlə, mənzillərlə və yaxşı şəraitlə təmin ediləcək köçkünlərin sayı təqribən 290 minə yaxın olacaqdır. Bildiyimiz kimi, cari il mayın 24-də isə, Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılışı oldu. Bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 98-ci şəhərcikdir. Qeyd edək ki, 2017-ci il martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirədə Mehriban xanım Əliyeva çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını vermişdi. Bir il əvvəl Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən "Qobu Park" yaşayış kompleksinin təməli qoyulmuşdu və artıq istifadəyə verildi. Layihə üzrə hər biri 2 bloklu, 9 mərtəbəli, 1026 mənzilli 11 yaşayış binası inşa olunub. Bu, 1026 məcburi köçkün ailəsinin mənzillə təminidir. Bu kompleksin yaradılması Azərbaycan dövlətinin köçkünlərə olan diqqətinin daha bir nümunəsidir.

Bu günlərdə, artıq açılış mərasimi keçirilmiş "Qobu Park" yaşayış kompleksinə məcburi köçkün ailələrinin yerləşdirilməsinə başlanılıb. Yaşayış kompleksinə üçmərtəbəli məktəb binası və uşaq bağçası daxildir. Yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - 350 yerlik mərasim evi, poçt, tibb, polis məntəqələri və mənzil-istismar idarəsi yaradılıb. Ərazidə 35 min kilovatlıq yarımstansiya inşa edilib, istirahət parkı salınıb və uşaq meydançaları yaradılıb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. "Qobu Park" yaşayış kompleksinin ilk sakinləri Bakı şəhərinin Nərimanov rayonunda, K.Rəhimov küçəsi, 824/835 ünvanında yerləşən tikintisi yarımçıq qalmış doğum evi binasının zirzəmisində müvəqqəti məskunlaşan və uzun müddət ağır şəraitdə yaşayan 46 ailə olub. Doğma yurd-yuvalarından didərgin düşmüş insanlar üçün salınan qəsəbələr, tikilən evlər qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşmasına xidmət etsə də, onlar bu ünvanlarda müvəqqəti məskunlaşdıqlarını və tezliklə ata-baba torpaqlarına qayıdacaqlarını yaxşı bilirlər. Cənab İlham Əliyevin vurğuladığı kimi, bu yaşayış kompleksləri müvəqqəti yaşayış yeridir və işğaldan sonra biz belə gözəl şəhərcikləri bu gün işğal altında olan torpaqlarda mütləq yaradacağıq.

Respublikanın bir çox yerlərində salınan bu qəsəbələr bir reallığı da ortaya qoyur ki, Azərbaycan dövləti hər zaman vətəndaşlarının qayğısına qalır, onların problemlərinin həlli dövlət siyasətinin mühüm istiqamətini təşkil edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Heç bir qüvvə Azərbaycan xalqının birliyini sarsıda bilməz"!

## *Azərbaycan ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir*

### Vüqar Rəhimzadə: "Xalq-iqtidar birliyini, inkişafı, sabitliyi heç bir qüvvə poza bilməz"



Sürətlə inkişaf edən Azərbaycan bu gün bütün dünyanın diqqət mərkəzindədir. Ölkəmizin həyata keçirdiyi qlobal layihələr regional və beynəlxalq əməkdaşlığa töhfə verdiyi kimi, görünür, bəzi dairələrin də maraqlarına uyğun gəlmir. Bu il Cümhuriyyətinin 100 illik yubileyini qeyd edən, sabitlik adası olan qüdrətli Azərbaycanın uğurlarını həzm edə bilməyən erməni və ermənipərəst, anti-Azərbaycan qüvvələr zaman-zaman olduğu kimi, yenə də respublikamızda qarışıqlıq salmağa çalışırlar. Ancaq onlar unudurlar ki, Azərbaycan ötən əsrin 90-cı illərinin əvvəllərindəki Azərbaycan deyil. Ölkə iqtidarı istər daxili, istərsə də xarici anti-Azərbaycan qüvvələrin bu cür məkrli niyyətlərinin qarşısını almağa qadirdir və alır. Bu gün ölkəmizdəki xalq-iqtidar birliyini, inkişafı, sabitliyi heç bir qüvvə poza, müstəqilliyimizi sarsıda bilməz. İyulun 10-da Gəncədə baş verən hadisələrdən də bir daha göründü ki, xalq heç vaxt bu cür ünsürlərə meydan verməz.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, iyulun 10-da 150-200 nəfərdən ibarət radikal dini yönümlü bir qrup şəxsin Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd etməsi və nəticədə 2 yüksək rütbəli polis əməkdaşının şəhid olması bu terroru planlaşdıran qüvvələrin ölkəmizə qarşı nə qədər qərəzli olduğunu bir daha nümayiş etdirir. O deyib: "Rəsmi məlumatlardan da aydın olduğu kimi, polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlər nəticəsində hüquqazidd əməllərin qarşısı alınıb, 40 nəfər tutulub, operativ tədbirlər sayəsində tez bir zamanda şəhərin mərkəzində asayiş tam təmin edilib. Göründüyü kimi, anti-Azərbaycan qüvvələr yenə də öz çirkin niyyətlərinə çata bilmədilər. Çünki xalqını, dövlətini, vətənini sevən hər bir insan kimi, Azərbaycanın hüquq mühafizə orqanları, o cümlədən mərd, cəsarətli polisimiz qanı və canı bahasına dövlət müstəqilliyimizə yönələn təhlükələrin qarşısını almağa, daxili sabitliyi və təhlükəsizliyi təmin etməyə qadirdir. Hazırda cinayətin iştirakçıları və təşkilatçılarının müəyyən edilib məsuliyyətə cəlb olunmaları üçün əməliyyat-axtarış tədbirləri davam etdirilir. Şübhəsiz ki, Gəncədə asayişi kobud şəkildə pozmağa cəhdin qarşısını alan zaman iki polis əməkdaşımızı qətlə yetirən cinayətkarlar tezliklə tutulacaq və qanun qarşısında cəzalandırılacaq."

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, bu gün sosial şəbəkələrdə bəzi daxili antimilli ünsürlər, eyni zamanda, dağıdıcı müxalifətin xaricdəki tör-töküntüləri baş verən hadisələri şişirtməyə, cinayətkarları "qəhrəman" obrazında insanlara sırımağa çalışırlar: "İstər Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə güllə atan Yunis Səfərov, istərsə də iyulun 10-da Gəncədə iki polis əməkdaşını qətlə yetirənlər ən ağır cinayətkarlardır, bu xalqın, dövlətin düşmənləridir. Onlardan "qəhrəman" obrazı yaratmağa çalışmaq elə onlar qədər bu dövlətə, millətə qənim kəsilmək deməkdir. Bir insanın içində öz ölkəsinə, xalqına nə qədər kin, nifrət olar?! Ancaq onlar anlamırlar ki, Azərbaycan xalqı bu münasibəti heç vaxt unutmayacaq, bu Vətən, torpaq onları qəbul etməyəcək. Xarici anti-Azərbaycan dairələrin maliyyəsindən qidalanan bu cür ünsürlər elə sosial şəbəkələr vasitəsilə susdurulurlar. Sadə insanlar öz şəxsi profilləri vasitəsilə onlara lazım olan cavabı verirlər və ən kəskin şəkildə tənqid edirlər. Bir sözlə, Azərbaycanın müstəqilliyi əbədidir, dövlət idarəçiliyi etibarlı əllərdədir, xalq-iqtidar birliyi möhkəmdir, sarsılmazdır".

### Musa Qasımlı: "Gəncədə törədilən iğtişaşın imanlı, inanclı adamlarla, əsl dindarlarla heç bir əlaqəsi yoxdur"



Gəncədə törədilən iğtişaş zamanı həlak olan polis zabitlərinə Tanrıdan rəhmət, ailələrinə və yaxınlarına səbir diləyirəm. Qəbirləri nurla dolsun. İğtişaşın Azərbaycan xalqının qədim mədəniyyət beşiklərindən biri, xalqımızın müsəlman Şərqində ilk olaraq qurduğu Cümhuriyyətimizin paytaxtı Gəncə şəhərində törədilməsi dərin təəssüf hissi doğurur. Çünki gəncəlilər daim müstəqil dövlətimizin və dövlətçiliyimizin yanında olub, heç bir zaman təxribatlara uymayıb.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlı deyib. Musa Qasımlı qeyd edib ki, iğtişaşın imanlı, inanclı adamlarla, əsl dindarlarla heç bir əlaqəsi yoxdur. Çünki ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət bütün dinlər üçün bərabər şərait yaradıb və onların işlərinə qarışmır. Hadisəni törədənlər xaricdən maliyyələşən, idarə olunan, Azərbaycan Respublikasını Suriyaya çevirmək və dövlətimizin dünyəvi təməllərini sarsıdıb dini dövlət qurmaq istəyən radikal qruplaşmalardır. "Hesab edirəm ki, belə cəhdlərin qarşısı dövlətimizin bütün qanunları ilə qətiyyətlə alınmalıdır. İctimai təhlükəsizliyi qoruyan polisə qaldırılan əl elə kəsilməlidir ki, digərlərinə də dərs olsun. İşğalçı Ermənistanın təcavüzünə qarşı mübarizədə rəşadət göstərmiş, həyatını dövlətə xidmətdə keçirən və daim dövlətimizə sədaqətli olan polisə necə əl qaldırmaq olar? Bunu edənin adı nədir?

Soruşulur: Bu iğtişaş gözlənilən idimi? Hesab edirəm ki, bəli! Hələ bu il keçirilən prezident seçkiləri ərəfəsində mürəkkəb proseslərin getdiyinə dair fikirlər səsləndirilirdi. Radikal dini qruplaşmaların fəaliyyətinin artması və baş verən digər xoşagəlməz son hadisələrin hamısının bununla bağlı olduğu qənaətindəyəm.

Fikrimcə, daha üç hadisə Azərbaycan dövlətçiliyinə qənim kəsilən radikal qüvvələri iğtişaş törətməyə vadar etdi: Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin ölkəmizdə və xaricdə təntənəli qeyd edilməsi; milli Ordumuzun möhtəşəm paradı; Naxçıvanda Günnüt əməliyyatı nəticəsində torpaqlarımızın azad edilməsi. Ancaq iğtişaş törətməyə can atanlar unudurlar ki, bu gün Azərbaycan dövləti çox güclüdür, bütün təxribatların qarşısını almağa qadirdir. Azərbaycan xalqı isə yüksək etimad göstərdiyi Prezident İlham Əliyevə güvənir və arxasındadır, pozucu qüvvələrə heç bir zaman meydan verməz. Millətimizin iradəsi hər şeydən üstündür",- deyə Milli Məclisin deputatı vurğulayıb.

### Bəhruz Quliyev: "Azərbaycan dövlətinin təməlləri sarsılmaz xalq-iqtidar birliyinə söykənir"



"Gəncədə iki polis zabitinin şəhid olması ilə nəticələnən məlum olaylardan sonra bir daha bəlli oldu ki, müstəqil, demokratik və hüquqi dövlətimizə qarşı törədilən təxribatlar daxili və xarici düşmənlərimizin mənfur niyyətlərinin nəticəsidir". Bunu SİA-ya açıqlamasında "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev deyib.

B.Quliyev bildirib ki, istər Mingəçevirdə baş vermiş qəzadan, istərsə də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı törədilmiş sui-qəsddən dərhal sonra sosial şəbəkələrdə cəmləşmiş dövlət düşmənləri insanları itaətsizliyə, anarxiyaya və zorakılığa çağırmağa başladılar: "Bəli, bu, müəyyən olunmuş xarici qüvvələrin bilavasitə sifarişi idi. Sifarişin əsasında isə dayanan əsas amil məhz xalq-iqtidar birliyini sarsıtmaq, bununla da çirkin niyyətlərini reallaşdırmaq idi".

Baş redaktorun sözlərinə görə, baş verənlər kontekstində olan daha bir məqam Avropa ölkələrində "siyasi mühacir", yaxud "dissident" statusu ilə fəaliyyət göstərən "klaviatura qəhrəmanları" ilə bağlıdır: "Onlar bu hadisəni gözləyirmişlər kimi sosial şəbəkələrdə canlı yayımlara çıxıb, aldıqları tapşırıqlarını reallaşdırmağa başladılar və insanların alt şüurlarında belə bir fikir formalaşdırmağa cəhd etdilər ki, guya Gəncədə iki hüquq-mühafizə orqanları əməkdaşının qətlə yetirilmələrindən "təəssüf hissləri" keçirirlər. Aydındır ki, onlar əslində bu qətllərin dolayısı ilə iştirakçılarıdırlar. Əgər belə deyilsə, onlar nəyə görə insanları kütləvi şəkildə itaətsizliyə çağırıb, qanunları pozmağa səsləyirdilər? Yaxud, şəhid düşmüş polis zabitlərimizin fotolarını yayaraq, onların Vətən, dövlət uğrunda ölümlərini məsxərə etməyə hansı adı vermək olar? Budurmu onların "demokratik", "humanist" düşüncə tərzləri? Yaxud, guya Azərbaycanda dindarların hüquqlarını müdafiə etdiklərini iddia edən həmin ucuz ünsürlər din faktorunu bu cürmü görürlər?".

B.Quliyev qeyd edib ki, din pərdəsi altında gizlənən və bu şəkildə fəaliyyət göstərən qruplar sözügedən hadisələrdə insanları mühafizə edən asayiş keşikçilərini qətlə yetirməklə, əslində nə qədər azğınlaşdıqlarını, hətta deyərdim ki, quduzlaşdıqlarını ortaya qoymuş oldular: "Bununla bir daha sübuta yetirildi ki, polis zabitlərimizi vəhşicəsinə qətlə yetirənlər, sabah torpaqlarımızın bütövlüyünü qoruyan əsgərlərimizə qarşı da eyni mənfur addımı ata bilərlər. Ümumiyyətlə, belə kimi halların qarşısını almaq üçün xalqımız daha vahid şəkildə öz dövlətinin, dövlət başçısının ətrafında birləşməlidir. Bu birlik mövcuddur, lakin bu məfhumu daha monolit təməllərə, dayaqlara əsaslandırmaq vacibdir. Çünki ölkəmizin daxili sabitliyini pozmaq istəyən daxili düşmənlərin bir ucu da bilavasitə işğalçı Ermənistana və bu ölkənin havadarlarına gedib-çıxır. Buna isə əsla rəvac vermək olmaz. Bizlər əminik ki, təxribat cəhdlərinin qarşısı bundan sonra da igid, vətənsevər polislərimiz, qanun keşikçilərimiz tərəfindən qətiyyətlə alınacaq. Onlar dövlətimizin maraqlarını öz sinələrini sipər kimi önə çəkərək qoruyurlar. Xalq isə bütün mənalarda öz polisinə güvənir, etibar edir. Məhz bu reallığın özü də dövlət-xalq vəhdətinin məntiqi göstəricisi olaraq dəyərləndirilə bilər.

Cənab Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu gün Azərbaycan dövlətinin inkişaf və tərəqqisinin təminatının baza hissəsində xalq-iqtidar birliyinin dayanmasıdır. Məhz hüquq-mühafizə orqanlarına dəstək verən xalqda pozucu qüvvələrin təxribatının qarşısının alınmasında öz sözünü demiş oldu. Sağlam düşüncəli və sağlam təfəkkürə malik olan ictimaiyyət Gəncədə baş verən son hadisələri hiddətlə qınayır, təxribatçıları və qatilləri isə lənətləyir və bundan sonra da öz dövlətinin və Prezidentinin yanında olduğunu əməli şəkildə sübuta yetirir!".

### Xalq Artisti Nurəddin Mehdixanlı: "Gəncədə cinayət törədənlər Azərbaycan qanunları qarşısında cavab verəcəklər"

Gəncədə baş verən hadisələrdən gəldiyim qənaət budur ki, düşmən qüvvələr Azərbaycanın müstəqilliyinə, sabitliyinə qə-

# “Heç bir qüvvə Azərbaycan xalqının birliyini sarsıda bilməz”!

## *Azərbaycan ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir*

nim kəsiliblər. Amma onlar unudurlar ki, bizim bu sərvətlərimizə uzanan əllər mütləq kəsiləcək. Azərbaycan qanunları qarşısında hər kəs bərabərdir. Bu cinayəti törədənlər Azərbaycan qanunları qarşısında cavab verəcəklər.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Xalq Artisti Nurəddin Mehdixanlı söyləyib. “Gəncə Azərbaycanın ürəyi, qədim tarixi şəhəridir. Gəncə və gəncəlilər daim Azərbaycan dövlətçiliyinin yanında olublar və bundan sonra da olacaqlar. Bu, bir qrup ra-



dikalın törətdiyi cinayətdir. Gəncə hadisəsi göstərdi ki, ölkəmizi xaosa sürükləməyə çalışan düşmənlərimiz var və biz onlara imkan verməməliyik”, - deyə N.Mehdixanlı vurğulayıb.

Xalq Artisti əlavə edib ki, ətrafımızda baş verən çox ciddi hadisələri harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı nəzərə almalıdır. Ölkəmizdə heç bir halda dini fanatizmə yol verməк olmaz. Dini fanatizmin qarşısı amansız şəkildə alınmalıdır. Allah şəhid polislərimizə rəhmət eləsin, yerləri behişt olsun! Onlar Azərbaycanda dini fanatizmə qarşı mübarizədə şəhid olublar. Azərbaycan Respublikasının vətəndaşı olaraq dövlətimizin, Prezidentimizin, xalqımızın, bayrağımızın yanındayıq.

### Sahibə Qafarova: “Gəncədə baş verən hadisələr ölkənin sabitliyinə, inkişafına qarşı yönələn məkrli planın tərkib hissəsidir”



Azərbaycanda güclü xalq iqtidar birliyi mövcuddur və bu birlik ölkəmizdə bütün problemlərin aradan qaldırılmasına imkan verir. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Sahibə Qafarova iyulun 10-da Gəncədə baş verən hadisələrə münasibət bildirərkən deyib.

Milli Məclisin deputatı bildirib ki, Gəncədə baş verən hadisələr ölkənin sabitliyinə, inkişafına qarşı yönələn məkrli planın tərkib hissəsidir və bu planı hazırlayanların hədəfində Azərbaycan dövlətçiliyi, müstəqilliyi dayanır. Bu əməli törədənlər faktiki olaraq terrorçulardır və onlar Azərbaycan dövlətinə qarşı terror törədiblər. Müxtəlif ölkələrdə baş vermiş qanlı hadisələri, ssenariləri Azərbaycanda da təkrarlamaq istəyən, ölkəmizdə böyük qırğınlar törətmək niyyətində olan bu dağıdıcı ünsürlərin məqsədi Azərbaycanda xaos və qarşıdurma yaratmaqdır.

S.Qafarova qeyd edib ki, bu terrorçular, təxribatçılar öz istəklərinə çata bilməyəcəklər. Çünki Azərbaycan xalqı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir və dövlətimizin başçısının ətrafında sıx birləşib. Bu ilin aprel ayında keçirilən prezident seçkilərində də biz bir daha bu reallığın şahidi olduq. Milli Məclisin deputatı deyib: “Azərbaycanın müstəqilliyini, dövlət quruluşunu, ölkəmizdəki sabitliyi hədəf alan hər bir qüvvə bu birlik qarşısında acizdir. Azərbaycan xalqı Gəncədə baş verən təxribatlara qarşı da öz barışmaz mövqeyini ortaya qoydu. Xalqımız dövlətimizin ətrafında bir yumruq kimi birləşərək pozucu qüvvələrə meydan vermədi. Ölkənin tanınmış ziyalıları, kütləvi informasiya vasitələri, sosial şəbəkələrdə fəallıq göstərən vətəndaşlarımız təxribat əməllərini kəskin şəkildə pisləyərək öz dövlətinə sahib çıxdı. Bax, budur, əsl vətəndaşlıq mövqeyi, xalqın, cəmiyyətin birliyi. Azərbaycan dövləti, dövlətçiliyi, milli maraqlarımız heç vaxt müzakirə mövzusu deyil və bu dəyərlərə qarşı atılan hər bir addımda dövlətini, xalqını sevən hər bir azərbaycanlı öz qəti mövqeyini ortaya qoyur. Bu hadisəni törədənlər, Azərbaycanda təxribat törətmək arzusunda olanlar da bilməlidirlər ki, Azərbaycan güclü dövlətdir və bu kimi cəhdlərlə müstəqilliyimizə xələl yetirmək mümkün deyil”.

Sahibə Qafarova vurğulayıb ki, baş verən hadisələr zamanı diqqət çəkən mühüm məqamlardan biri də təhlükəsizlik orqanlarının, o cümlədən Azərbaycan polisinin yüksək vətənpərvərlik, peşəkarlıq nümayiş etdirməsidir. Rəşadətli, qətiyyətli Azərbaycan polisi ən çətin məqamlarda belə öz dövlətinə, dövlətçiliyimizə sədaqətlə xidmət edir. Azərbaycan polisi bir daha sübut etdi ki, xalqımızın, dövlətimizin təhlükəsizliyini qorumaq üçün öz canını qurban verməyə hazırdır. Asayiş keşikçiləri hər cür təxribata qarşı adekvat tədbirlər görür, pozucu qüvvələrə qarşı barışmaz mövqe nümayiş etdirərək lazımi addımları atır. “Azərbaycanın ən mürəkkəb situasiyalarda belə milli maraqlarımızı, xalqımızın mənafeyini qətiyyətlə qorumağı bacaran qüdrətli lideri var və Azərbaycan xalqı öz Prezidentinin yanındadır. Azərbaycan bundan sonra da öz müstəqillik yolunda inamla addımlayacaq”,- deyə Milli Məclisin deputatı vurğulayıb.

### Seyid Yusif Ağa: “Ağdam dindarları Gəncədə törədilən iğtişaşı qətiyyətlə pisləyirlər”

İyulun 10-da Gəncə şəhərində baş verən hadisəni eşidib çox məyus olduq. Din adından istifadə edən bir qrup radikal insanın iğtişaş törətməyə cəhd göstərməsi, iki polis zabitinin qətlə yetirilməsi bizi kədərləndirdi. Biz Ağdam dindarları Gəncədə törədilən iğtişaşı qətiyyətlə pisləyir və cinayətkarların cəzalandırılmasını tələb edirik.

Bu fikirləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Ağdam rayonu Çəmənli kəndindəki Seyid Lazım Ağa ocağının axundu Seyid Yusif Ağa söyləyib. O deyib: “Ölkəmizdə dini etiqad azadlığına və milli mənəvi dəyərlərimizə yüksək qayğı ilə yanaşılır. Bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Təsadüfi deyil ki, Ulu Öndər hakimiyyətə gəldikdən sonra ilk gördüyü işlərdən biri Bibiheybət məscidinin bərpası oldu. Dahi rəhbərin dövlət-din siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Milli mənəvi



dəyərlərimizin qorunması və inkişaf etdirilməsini daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, məscidlər, dini məbədlər, tarixi abidələr, ziyarətgahlar inşa edilir, bərpa olunur və yenidən qurulur. Azərbaycandakı dövlət-din münasibətləri bütün dünyaya nümunədir. Azərbaycanda dini dözümlülük, dövlətimizin dinə, mənəvi dəyərlərimizə olan münasibətindən çox razıdır”.

Seyid Yusif Ağa bildirib ki, bu gün Azərbaycanda əmin-amanlıq, sabitlik hökm sürür. Region ölkələrinə nəzər saldıqda Azərbaycanı sabitlik adası adlandırmaq olar. Bu sabitliyin, vətəndaşların dinc, əmin-amanlıq içərisində yaşamalarının təmin olunmasında da polis orqanlarının böyük rolu var. “Azərbaycan polisi Vətənə, xalqa sədaqətlə və ləyaqətlə xidmət edir. Azərbaycan polisi respublikamızın ərazi bütövlüyünün qorunmasında da fəal iştirak edib, bu yolda şəhidlər verib. Asayiş keşikçilərinə qarşı bu cür hərəkətlər yolverilməzdir”, - deyə Seyid Yusif Ağa vurğulayıb.

### Professor Adil Allahverdiyev: “Gəncədə təxribat törədənlər Azərbaycan dövlətinin düşmənləridir”



Son günlər Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə bir-birinin ardınca törədilən qanlı hadisələrə kəskin şəkildə etirazımı bildirirəm. Bu hadisələri təşkil edən və törədənlər Azərbaycan dövlətinin düşmənləridir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyədə çalışan azərbaycanlı professor Adil Allahverdiyev deyib. Bu cür hadisələrin təsadüfən baş vermədiyini bildirən Adil Allahverdiyev vurğulayıb ki, Azərbaycanın sürətli inkişafı, dövlətimizin regionda lider ölkəyə çevrilməsi, o cümlədən Avrasiya məkanındakı proseslərə təsir etmək imkanlarımızın genişlənməsi ilə düşmənlərimiz daha da fəallaşır. Təəssüf ki, düşmən tarixin bütün məqamlarında olduğu kimi, yenə də yerli manqurtlardan bəhrələnir. Professor Adil Allahverdiyev fikirlərini belə tamamlayıb: “İstənilən xoşagəlməz hadisə Azərbaycandan kənarda olan soydaşlarımızı narahat edir. Gəncədə baş verənləri sonsuz üzüntü ilə izlədik. Əminəm ki, aidiyyəti orqanlar Gəncə hadisələrinin təşkilatçılarını və cinayətkarları tezliklə aşkar edəcəklər. Ölkəmizdə sabitliyin qorunması milli təhlükəsizliyimizin təminatıdır. İnanıram ki, Azərbaycan xalqı həmrəylik nümayiş etdirərək dövlətimizin müdafiəsində olacaq”.

### Professor Həsənbala Sadıqov: “Gəncədə təxribat törətməyə çalışanlar ekstremistlərdir”



Gəncə şəhəri öz tarixində növbəti qanlı gününü yaşadı və dövlətini sevən hüquq mühafizə orqanları bu təxribatın qarşısını qətiyyətlə aldılar. Bu fikri AZƏRTAC-a açıqlamasında AMEA Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun tarix şöbəsinin müdiri, Gəncə Dövlət Universitetinin professoru Həsənbala Sadıqov bildirib. O qeyd edib ki, Gəncədə təxribat törətməyə çalışan qüvvələri idarə edənlər həm ölkə daxilində, həm də xaricində olan müəyyən ekstremist qruplardır. Bu, primitiv şəkildə təşkil olunmuş terror hadisəsi idi.

H.Sadıqov bildirib ki, Azərbaycan dövlətində qanuni hakimiyyət mövcuddur. Yəni, iqtidara gəlmək istəyənlər müxtəlif silahlarla meydana çıxıb təxribat törətməməlidir, çünki bu yolla hakimiyyəti ələ keçirmək hərəkətləri keçmişdə qalıb. Bunun üçün ölkə Konstitusiyası və Seçki Məcəlləsi mövcuddur. Yəni, ölkəyə rəhbər olmaq üçün Prezident İlham Əliyev kimi xalqın etimadını qazanaraq seçkilərdə qalib gəlmək lazımdır.

Müsahibimiz, həmçinin əlavə edib ki, 50-100 nəfərlə küçəyə çıxıb terrorla məşğul olmaq Azərbaycan dövlətinə və xalqına düşmən mövqe tutmaqdan ibarətdir.

Ardı Səh. 10

www.sesqazeti.az
facebook Ses Media Holding

# "Heç bir qüvvə Azərbaycan xalqının birliyini sarsıda bilməz"!

*Azərbaycan ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir*

Əvvəli Səh. 9

Həsənbala Sadıqov tələbələrinə də müraciət edərək bildirib ki, ölkənin təhlükəsizliyi onun sabitlik indeksidir. Bu, Azərbaycanda mövcuddur. Lakin bunu istəməyən qüvvələr var. Həmin qüvvələrin məqsədi anarxiya yaradaraq anti-Azərbaycan planını həyata keçirməkdir. Bu səbəbdən əsl Azərbaycan vətəndaşları yalnız Prezidentimizin ətrafında birləşməlidir və bu gün ölkəmizin yeganə problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışmalıdır.

## Cəlil Xəlilov: "Heç bir qüvvə zamanın sınaqlarından çıxmış Azərbaycan xalqının birliyini sarsıda bilməz"



Bu gün Azərbaycan Respublikası demokratik dəyərlərə əsaslanan inkişaf yolu ilə gələcəyə doğru inamla addımlayır. Azərbaycanın dini və milli tolerantlıq sahəsində həyata keçirdiyi siyasət xalqımızın tarixi ənənələrinə əsaslanmaqla, digər dövlətlərə nümunə olacaq səviyyədədir. Sağlam cəmiyyətin, güclü dövlətin təməli kimi şəxsiyyətyönümlü siyasəti özünün başlıca hədəfi elan edən Azərbaycan dövləti hər bir vətəndaşına yüksək dəyər verir. Əlbəttə, müharibələrin, terror aktlarının, təlatüm və çaxnaşmaların tüğyan etdiyi müasir dövrdə insani dəyərlərə əsaslanan siyasətin ardıcıl şəkildə, dönmədən həyata keçirilməsi böyük qüvvə və ən başlıcası siyasi iradə tələb edir.

AZƏRTAC xəbər verir ki, bu fikri iyulun 10-da Gəncədə törədilən iğtişaşlarla bağlı şərhində Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov deyib. C.Xəlilov bildirib ki, Azərbaycanın uğurları uzun illər boyu müxtəlif dinisiyasi ideologiyaların basqısı altında olan xalqlara ümid verir, onları elmə, təhsilə, mədəniyyətə, innovativ inkişafa, tərəqqiyə səsləyir. Bu gün Azərbaycanın dünyəviliyə, insani dəyərlərə, humanizmə əsaslanan siyasi kursu inamla davam etdirilir. Bütün bunlar başda ölkə rəhbərliyinin və hər bir azərbaycanlının yorulmaz əməyinin nəticəsidir. Ölkədə sabitliyin, əmin-amanlığın qorunub saxlanılmasında bu siyasətin əvəzsiz rolu var. Əlbəttə, bu sahədə ölkənin güc strukturlarının səmərəli fəaliyyəti də xüsusi qeyd edilməlidir. Milli təhlükəsizliyin əsas komponenti olan daxili təhlükəsizliyin etibarlı təmin edilməsində hüquq mühafizə orqanları, o cümlədən Azərbaycan polisi bütün lazımi tədbirləri görür. Vətənə, xalqa sədaqəti ilə fərqlənən Azərbaycan polisi Gəncədə baş verən iğtişaşların qarşısının alınmasında bunu bir daha göstərdi. Hamılıqla bir daha şahidi olduq ki, daxili sabitliyin və rifahın təmin edilməsində Daxili İşlər Nazirliyinin əməkdaşlarının xidməti əvəzsizdir. Vəzifə borcuna sadiq qalan polislərimiz konstitusion dövlət quruluşunun dəyişdirilməsinə yönəlmiş cəhdlərin qarşısını öz canları bahasına qətiyyətlə aldılar.

"Təəssüf ki, ölkəmizin inkişafını istəməyən müəyyən qüvvələrin Azərbaycanda çirkin niyyətlərinin təmin olunmasına xidmət edən bu cəhdlərə bəzi daxili qüvvələr də cəlb olunublar. Ölkənin dünyəvi, demokratik konstitusion dövlət quruluşunu dəyişməyə, dövlət idarəçiliyi modelini sarsıtmağa yönəlmiş belə cəhdlərlə Azərbaycan müstəqilliyin bərpasının ilk illərində də qarşılaşmışdı. Ancaq xalqımızın iradəsi, mərdliyi, eləcə də, ulu öndər Heydər Əliyevin yürütdüyü düzgün, uzaqgörən və qətiyyətli siyasət sayəsində bu cəhdlərin hamısı uğursuzluqla nəticələndi. Həmin qüvvələri həmişə eyni tale gözləyir. Çünki Azərbaycan indi əvvəlki illərlə müqayisə olunmayacaq dərəcədə güclü və inkişaf etmiş dövlətdir və heç bir qüvvə ölkəmizi inkişaf yolundan döndərə bilməz", - deyə ehtiyatda olan polkovnik vurğulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinin yüksək səviyyədə qeyd edilməsi, ordumuzun möhtəşəm hərbi paradı bizi istəməyən bəzi məkrli qüvvələrdə qısqanclıq və paxıllıq hissini artırıb. Bütün bunlar din pərdəsi arxasında gizlənən və dindən öz məqsədləri üçün istifadə edən simasız və mənfəət güdən qüvvələrin riyakar fəaliyyətindən başqa bir şey deyil.

"Veteranlar xalqımızı cəmiyyətdə nifaq yaradacaq fəaliyyətlərə qarşı olmağa, dözümlülük nümayiş etdirməyə səsləyir, hər zaman olduğu kimi, bu hadisələrin səbəbkarlarının tezliklə layiq olduqları cəzaları alacaqlarına inanırlar. Azərbaycan Ordusu, polisi və digər güc strukturları sabitliyin təmin edilməsinin qarantıdır. Azərbaycanın dünyəvi və modern dövlət quruluşu radikalizmin, terrorizmin dövlət ideologiyasına çevrildiyi, din pərdəsi altında insanların azad yaşamaq haqlarının əlindən alındığı, feodalizm qaranlığının hökm sürdüyü, insan həyatının və hüquqlarının dəyər verilmədiyi ölkələrin vətəndaşları üçün işığın, inkişafın, azadlığın ünvanıdır. Heç bir qüvvə zamanın sınaqlarından çıxmış Azərbaycan xalqının birliyini sarsıda bilməz", - deyə C.Xəlilov vurğulayıb.

## "Azərbaycanı Suriyaya çevirmək istəyənlərin arzusu ürəyində qalacaq"



"Ümumiyyətlə Gəncədə baş verən hadisələr terrordur və iğtişaşdır. Bu, yolverilməz bir haldır. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır. Amma biz nəticələr çıxarmalıyıq". Bunu SİA-ya açıqlamasında Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin (TOHGMİB) sədri, hərbi ekspert Emin Həsənli deyib.

Onun sözlərinə görə, bu gün Azərbaycanın müstəqil siyasət aparması, ordusunun güclü olması bəzi dairələri ciddi narahat edir: "Bildiyiniz kimi, Gəncə hadisələri Bakıda keçirilən Hərbi Paraddan sonra baş verdi. Bu gün xaricdə və daxilimizdə Azərbaycanı istəməyən qüvvələr var. Xatırlayırsınızsa, Nardaran hadisələrində polislərə qumbara atılmışdı indi isə Gəncədə baş verən hadisədə iki polis zabitimiz qətlə yetirildi. Bu bir cinayətdir və Azərbaycanın hüquq-mühafizə orqanları bunu araşdıracaq. Azərbaycan ictimaiyyəti, ziyalılar, vətəndaşlarımız, hərbiyönümlü QHT-lər, ehtiyatda olan zabitlər, döyüşçülər, şəhid ailələri və s. bu hadisəni pisləyir. Bu gün Azərbaycan polisi dövlətimizin keşiyində durur və sabitliyimizi qoruyur. Polis bizim üçün dəyərlidir. Ancaq polisimizin öz vətəndaşlarımız tərəfindən qətlə yetirilməsi bizi ciddi narahat edir.

Təəssüf hissi keçiririk ki, vətəndaşlarımız xarici qüvvələrin əlində tətikçidir və bu qəbuledilməzdir. Terrorçular hazırlıqlı gəlmişdilər və əllərində soyuq silahlar olmuşdu. Azərbaycanı Suriyaya, Əfqanıstana çevirmək istəyənlərin arzusu ürəyində qalacaq. Azərbaycan müasir, sivil dövlətdir. Bu gün Azərbaycanda xalq-iqtidar birliyi var. Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev və cənab Prezident İlham Əliyevin siyasətini dəstəkləyir. Azərbaycan xalqı, cəmiyyəti imkan verməyəcək ki, onun müstəqilliyinə qəsd olsun".

## Qax ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir



Azərbaycanın gündən-günə artan nüfuzunu, uğurlarını gözü götürməyən məkrli qüvvələr ölkəmizin sürətli inkişafına mane olmaq, sabitliyimizi pozmaq məqsədilə din pərdəsi altında vaxtaşırı təxribatlara əl atır, öz çirkin niyyətlərini həyata keçirmək üçün qardaş qanı axıtmaqdan belə çəkinmirlər. İyulun 10-da Gəncədə baş vermiş qanlı hadisə radikal ünsürlərin əsl simasını bir daha ortaya qoydu. Təəssüf ki, təxribatların qarşısını almaq üçün hüquq mühafizə orqanlarının keçirdiyi əməliyyat zamanı öz xidməti vəzifələrini yerinə yetirən iki polis zabitimiz qəhrəmancasına şəhid olub. Bütün ölkə ictimaiyyəti kimi, Qax sakinləri də Azərbaycanda qarışıqlıq yaratmaq istəyən, polisə və dövlətə qarşı silah işlədən pozucu qüvvələrin əməllərini qəti şəkildə pisləyir, şəhid polislərimizə Allahdan rəhmət diləyirik.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Qax ziyalısı Yaşar Şirinov söyləyib. "Gəncədə baş verənlər bir daha təsdiq edir ki, Azərbaycanda ictimai-siyasi sabitliyin pozulması, vətəndaş qarşıdurmasının yaranması müəyyən xarici qüvvələrin maraq dairəsindədir. Lakin belə qüvvələr və onların əlaltıları bilməlidirlər ki, Azərbaycan güclü dövlətdir və iqtidar-xalq birliyi ölkədə vətəndaş qarşıdurmasının yaranmasına heç zaman yol verməyəcək. Hüquq mühafizə orqanları dövlətin və xalqın iradəsinə uyğun olaraq Azərbaycanda sabitliyin qorunub saxlanması istiqamətində hər zaman qətiyyətli tədbirlər həyata keçirəcək", - deyə Yaşar Şirinov bildirib.

## Akademik Fuad Əliyev: "Cinayətkarlar tezliklə cəzasını alacaq, onların arxasında duran qüvvələr isə ifşa olunacaqlar"



AMEA-nın Gəncə bölməsi, yəni, mənim iş yerim Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısındadır. İyulun 10-da axşam saat 20 radələrində bir qrup dini radikal heç bir tələb irəli sürmədən asayişi qoruyan polislərə hücum edib, soyuq silahlarla və kəsici-deşici alətlərlə iki polis əməkdaşını qətlə yetirib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında AMEA Gəncə bölməsinin akademik-katibi, professor Fuad Əliyev bildirib. Alim deyib: "Sözsüz ki, bu hərəkət dövlətə və dövlətçiliyə qarşı böyük bir qəsb və qanlı cinayətdir. Gəncə sakinlərinin bu işlərin heç birindən xəbərləri yox idi. Bu qanlı iğtişaş bir andaca həyata keçirildi. Gəncənin bu meydanı şəhər sakinləri üçün istirahət yeridir. Burada fəvvarələr, oturacaqlar və insanların istirahəti üçün hər cür şərait var. Bu hadisə də elə insanlar parkda istirahət edən vaxt qəfildən baş verdi. Azərbaycanın hüquq mühafizə orqanlarının əməkdaşları, polislərimiz bu hadisədə böyük rəşadət göstərdilər. Qısa vaxtda - 15-20 dəqiqə ərzində bu iğtişaşın qarşısı alındı, şəhərdə dünən axşamdan asayiş tam bərpa olundu".

Professor Fuad Əliyev qeyd edib ki, şəhərin ictimai həyatı əvvəlki axarında davam edir. İnsanlar yenə də gündəlik həyat qayğıları və işləri ilə məşğuldurlar. Biz, şəhər ziyalıları, alimlər Gəncədə son günlərdə baş verən terror hadisəsini və qanlı iğtişaşı böyük nifrətlə qarşılayırıq və bu cür hadisələri qınayırıq. Bu cür hadisələrin şəhər sakinləri ilə heç bir əlaqəsi yoxdur. Əminik ki, bu cür cinayətkarlar tezliklə cəzasını alacaq, onların arxasında duran qüvvələr isə ifşa olunacaqlar. Gəncəlilər heç zaman razı ola bilməzlər ki, Cənubi Qafqazın ən sabit və sürətlə inkişaf edən ölkəsi Yaxın və Orta Şərqin, ərəb və Afrika ölkələrinin vəziyyətinə düşsün. Azərbaycan hüquqi dövlətdir. Bura naməlum güclərin xaos poliqonu deyil. Azərbaycanın yolu sabitlik və inkişaf yoludur.

Ardı Səh. 11

# “Heç bir qüvvə Azərbaycan xalqının birliyini sarsıda bilməz”!

## *Azərbaycan ictimaiyyəti təxribatçı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərini qətiyyətlə pisləyir*

Əvvəli Səh. 10

### Professor İbrahim Cəfərov: “Gəncəlilər müstəqil dövlətimizin, dövlətçiliyimizin və Prezidentimizin daim yanında olub və olacaqlar”



Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü professor İbrahim Cəfərov iyulun 10-da Gəncədə törədilən cinayətlə bağlı AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində aşağıdakıları deyib:

-Bu hadisələrə doğru qiymət vermək üçün yaxın tarixə ekskurs etmək lazımdır. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinin qeyd olunması, bununla bağlı olaraq iyunun 26-da hərbi paradın keçirilməsi və ən müasir silahların həmin paradda nümayiş etdirilməsi, bir sözlə, dövlətimizin hərbi qüdrətinin nümayişi, görünür ki, xaricdə və daxildə olan pozucu qüvvələr tərəfindən narahatlıqla qarşılanıb. Təsadüfi deyil ki, həmin qüvvələr respublikamızda, eləcə də onun ikinci böyük şəhəri olan Gəncədə sabitliyi pozmaq, iğtişaş yaratmaq üçün fəaliyyətə keçiblər. İyulun 3-də Gəncə Şəhər İcra Hakimiyyətinin başçısının silahlı sui-qəsdə, terrora məruz qalması, ayın 10-da isə bir qrup radikal ünsürün şəhərin mərkəzində qarşıdurma yaratmağa cəhd etməsi, ümumilikdə ölkədə xaos, anarxiya yaratmaq istəyən qüvvələrin məqsədinə xidmət edir.

Bu insanların əvvəlcədən sosial şəbəkələr vasitəsilə şəhərin mərkəzinə toplaşmaq üçün çağırışlar etməsi, daha sonra bir fit səsi ilə hamısının meydanın mərkəzinə toplaşaraq bizim danışığımızdakı ləhcə və şivəmizə uyğun olmayan tərzdə dini şüarlar səsləndirməsi bu cür düşünməyə əsas verir ki, həmin insanlar radikal, dini təmayüllü pozucu qüvvələrdir. Onlar dünyanın hansısa mərkəzləri tərəfindən idarə olunur və istiqamətləndirilir. Onların əsas məqsədi ölkədə vətəndaş qarşıdurması yaratmaq, dincliyimizi və əmin-amanlığımızı pozmağa yönəlib.

Əlbəttə, cəmi 15-20 dəqiqə ərzində Azərbaycan polisinin qətiyyəti ilə dövlətimizin gücü həmin başıpozuq qüvvələrə nümayiş etdirildi. Sevindirici hal odur ki, Gəncə şəhərinin sakinləri onların təxribat xarakterli dini şüarlarına və çağırışlarına heç bir dəstək vermədilər. İndi bütün gəncəlilərin əsas istəyi həmin qüvvələrin tez bir zamanda aşkarlanması, zərərsizləşdirilməsi və qanunla cinayət məsuliyyətinə cəlb edilməsidir. Gəncəlilər müstəqil dövlətimizin, dövlətçiliyimizin və Prezidentimizin daim yanında olub və olacaqlar.

### Professor Azad Bayramov: “Gəncəlilər dini radikal qrupların şəhərdə törətdiyi iğtişaşı qətiyyətlə pisləyirlər”



İyulun 10-da Gəncədə baş verən hadisələr şəhər ziyalılarını olduqca kədərləndirdi. Hadisələrin gedişi göstərdi ki, bu, hansısa naməlum qüvvələr tərəfindən dövlətçiliyimizə qarşı əvvəlcədən planlaşdırılmış məqsədyönlü cinayətdir.

Bu fikirləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Azərbaycan Dövlət Aqrar Universitetinin tarix fakültəsinin dekanı professor Azad Bayramov deyib.

Professor vurğulayıb ki, bu gün Gəncə inkişaf edən, abadlıq-quruculuq işlərinin geniş vüsət aldığı şəhərdir. Çox təəssüflər olsun ki, bu hadisələr bu cür şəhərdə baş verir. Bu cür hadisələr üçün Gəncənin seçilməsi təsadüfi deyil. Gəncə tarixən inqilab mərkəzi olub, amma bu şəhərin sakinləri həmişə yadelli işğalçılara qarşı mübarizə aparıblar. Bu şəhərdə heç vaxt vətəndaş qarşıdurması, qardaş qırğını olmayıb. Çox təəssüflər olsun ki, Azərbaycanda qarşıdurma yaratmaq istəyən qüvvələrin əsas istəyi də özlərinin məkrli planlarını həyata keçirmək üçün ölkədə rəsmi şəxslərə və hüquq mühafizə orqanlarının əməkdaşlarına qarşı sui-qəsd və terror törətməklə insanlar arasında qarşıqlıq, dövlətə qarşı inamsızlıq yaratmaq və qardaş qırğını törətmək idi. Bütün Gəncə sakinləri, o cümlədən ziyalılar əmindirlər ki, bu cür başıpozuq, radikal dini meyilli qüvvələrin qarşısı tezliklə alınacaq. Doğrudur, iğtişaşlar başlayandan sonra 15-20 dəqiqə ərzində şəhərin əsas meydanı radikallardan təmizləndi, asayiş bərpa olundu. Biz bir daha bu cür hadisələri törədənləri, iki polis zabitinin qətlə yetirilməsi ilə nəticələnən qanlı iğtişaşı qətiyyətlə lənətləyirik.

### Mahir Dərziyev: “Gəncədə baş verən hadisələr bölgənin lider dövləti olan Azərbaycanı istəməyən qüvvələrin təxribatıdır”



İyulun 10-da Gəncədə baş verən hadisələr bölgənin lider dövləti olan Azərbaycanı istəməyən qüvvələrin təxribatıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan parlamentinin deputatı, hakim “Gürcü arzusu-Demokratik Gürcüstan” partiyasının üzvü Mahir Dərziyev Gəncədə baş verən hadisələri şərh edərkən söyləyib.

M.Dərziyev bildirib ki, iyulun 10-da təqribən 200 nəfərədək radikal dini yönümlü şəxslərin Gəncə şəhərində asayişi kobud şəkildə pozmağa cəhd göstərməsi xəbəri Gürcüstanda yaşayan azərbaycanlıları da ciddi şəkildə hiddətləndirib. Bu cür qanunazidd hərəkətlər Azərbaycanda siyasi sabitliyi pozmağa yönəlib. Gürcüstanda yaşayan azərbaycanlılar bunun əleyhinədir və müstəqil Azərbaycan dövlətini, onun Prezidentini dəstəkləyirlər.

## Anti-Azərbaycan qüvvələrə qarşı xalqımız barışmaz mövqedədir

Özünün dinamik inkişafını yaşayan, dünyada böyük nüfuza malik olan, tolerant, multikultural mühiti ilə dünyaya nümunə olan, sabitlik adasına çevrilən Azərbaycanda ictimai-siyasi sabitlik, əmin-amanlıq qorunub-saxlanılır. Bu ab-havanı gözü götürməyən qüvvələr mövcud sabitliyi pozmağa çalışaraq, müxtəlif iyrənc əməllərlə xalq-iqtidar birliyinə əsaslanan dövlətimizdə çaxnaşma yaratmağa cəhd edirlər. Çoxəsrlik tarixi olan Gəncə şəhərində məlum təxribatı törətməyə çalışan qüvvələrin əməlləri həmrəylik nümayiş etdirən xalqımız tərəfindən hiddət və qəzəblə qarşılanıb. Məlumdur ki, terrorla sərt mübarizə aparan Azərbaycan dövlətinə və xalqına düşmən mövqe tutanlar Azərbaycanı sevməyən qüvvələrin xidmətçiləridirlər. Anti-Azərbaycan mövqedən çıxış edənlərə qarşı xalqımızın ziyalıları və sənət xadimləri qəzetimizə fikirlərini belə ifadə etdilər.

### Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru İftixar Piriyev:



- Bütün dövrlərdə dünya ölkələrində təxribatçılar, sui-qəsdçilər, təsir altına düşən manqurdlar və onları yolundan azdırmağa çalışan ünsürlər olmuşdur. Fəqət, böyük xalqlar, ağıllı millətlər heç vaxt belə əməllərin böyüməsinə yol verməmişdir. Biz, məhz həmin xalqlardanıq! İnanıram ki, Gəncə şəhərində mövcud olan sağlam və sabit olan ictimai-siyasi asayişi pozmağa heç bir radikal qüvvənin ağlı və gücü yetməz. Çünki bizim siyasətimiz də, sabitliyimiz də əmin əllərdədir - xalqımızın və ölkə rəhbərimizin xüsusi nəzarəti altındadır. Xalqımız birdir, bütövdür, həmrəydir! Dövlətimizin təməli, xalqımızın nurlu sabahı Müdrik Liderin müdrik zəkası ilə yoğrulmuşdur. Öz mənafeyi uğrunda xalqımızı yolundan döndərməyə çalışanlar anlasınlar ki, qarşılarında, həmişə olduğu kimi, bundan sonra da Azərbaycan xalqını görəcəklər. Eşq olsun xalqımızın birliyinə, bütövlüyünə və həmrəyliyinə.

Xainin xəyanəti bağışlanmadığı kimi, xəyanətkarın xain əməli də xalqın qəzəbi ilə öz cəzasını alır. Gəncə şəhərində baş vermiş hadisə çox üzücüdür. Vəzifə borcunu yerinə yetirən zaman həlak olmuş asayiş qoruyucularına Allah rəhmət etsin! Bütün xalqımızı sabitliyin qorunmasına dəstək olmağa çağırıram!

### Azərbaycanın xalq artisti Rasim Balayev:



- Son günlər Gəncədə bir-birinin ardınca törədilən qanlı hadisələrə Azərbaycanı sevən, onun vətəndaşı olan hər kəs kimi kəskin şəkildə etirazımı bildirirəm, bu, yolverilməzdir. Mən qətiyyətlə deyirəm ki, bu iğtişaşı törədənlər Azərbaycan dövlətinin düşmənləridir. Bu gün müstəqil dövlət kimi formalaşan Azərbaycan böyük inkişaf yolundadır. Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə hadisələri təşkil edən və törədənlər Azərbaycan dövlətinin düşmənləridirlər. Belə hadisələr təsadüfi baş vermir, xüsusi ssenari ilə hazırlanır. Mən bir sənət xadimi kimi deyərdim ki, Azərbaycanın sürətli inkişafı, dövlətimizin regionda lider ölkəyə çevrilməsi düşmənlərimizi çox narahat edir. Azərbaycanda sabitliyi pozub, terror aktı törətmək istəyən qüvvələr var ki, onların məqsədi anarxiya yaradaraq, anti-Azərbaycan planını həyata keçirməkdir. Biz vətənin şərəfini uca tutan, onun nailiyyətlərinə sevinən Azərbaycan vətəndaşları, yalnız Prezidentimizin ətrafında daha da sıx birləşməliyik. Ölkədə sabitlik, vətəndaş həmrəyliyi, xalq -iqtidar birliyi belə anti-Azərbaycan qüvvələri qarşısında möhkəm çəpərdir. Xalqımız, məhz bu dəyərlər ilə silahlanıb. Bu halları pozmağa çalışmaq, vətənə xəyanətin göstəricisidir. Aramızda xainlərə yer yoxdur.

Vətənini sevən, dövlətinə sadiq olan hər kəs Azərbaycanın bu günü və gələcəyi naminə çalışmalıdır. Bizi Dağlıq Qarabağ münaqişəsini həll etmək, torpaqlarımızı düşməndən azad etmək kimi ciddi bir məsələ narahat etməlidir. Azərbaycan vətəndaşları Azərbaycan Prezidenti Cənab İlham Əliyevin ətrafında sıx birləşməlidir.

**ZÜMRÜD BAYRAMOVA**

## “14 iyul 1969-cu il - yüksəlişin başladığı illər”

*Bu mövzuda Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatında tədbir keçirilib*




Dünən Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatında “14 iyul 1969-cu il yüksəlişin başladığı illər” adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası Balakən rayon təşkilatının sədri Azad Balayev açmışdır. Təşkilat sədri bildirib ki, 14 iyul 1969-cu ildə Azərbaycan Respublikasının rəhbərliyinə seçilmiş Ulu Öndər Heydər Əliyevin bilik və bacarığı, idarəetmə qabiliyyətinin yüksək olması iqtisadi cəhətdən geridə qalmış Azərbaycan Respublikasının dirçəlməsinə, inkişaf etməsinə, sənayenin və kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir: “Yüksək idarəçilik qabiliyyəti imkan vermişdir ki Azərbaycan Respublikası müttəfiq respublikalar, içərisində qısa müddət ərzində, öncüllər sırasına çıxmışdır. Azərbaycanın kənd təsərrüfatı, sənayesi və dövlət quruculuğunun təməli o illərdən əsası qoyulmuşdur. 1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə Azərbaycanda hakimiyyət gələn Ulu Öndər Heydər Əliyev müstəqil dövlətin qurucusu və memarı olmuş, xalqının “Ulu Öndəri” səviyyəsinə yüksəlmişdir. Qurduğu müstəqil dövləti, onun inkişaf təməlini və gələcəyini, məhz Dahi Öndər Heydər Əliyev müəyyənləşdirmiş və idarəetmə sistemini yüksək səviyyədə təkmilləşdirərək, dövlətçiliyimizin etibarlı əllərlə idarə olunmasını təmin etmişdir”. A.Balayev çıxışında bildirib ki, Ulu Öndərin tövsiyələri, müstəqil dövlətin idarə olunma təməli Onun varisi, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.



Tədbirdə çıxış edən Balakən Gənclər və İdman İdarəsinin rəisi, rayon təşkilatının idarə heyətinin üzvü Rasim Paçalov müstəqil Azərbaycan dövlətinin quruculuğunda Heydər Əliyevin rolundan söz açmışdır. Onun rəhbərliyi ilə dövlətdə Gənclər Siyasətinin həyata keçirilməsi bu günümüzlə səslənən gündəlik qayğılarımızın təməlində dayanır.

Tədbirdə çıxış edən rayon təşkilatının şura üzvü, rayon Ağsaqqallar Şurasının sədri Rəşid Musayev Heydər Əliyevin müstəqil Azərbaycanın həyatında qoyduğu izlərdən, dövlətçiliyimizin qorunma tövsiyyələrindən geniş söhbət açmışdır.

Gənc fəal Fuad Mikayılov çıxışında rayon gənclərinin asudə vaxtlarının səmərəli keçirilməsi üçün dövlətimizin diqqət və qayğısından geniş söhbət açmışdır.

**RƏFİQƏ**

## AMEA Rəyasət Heyətinin iclasında bir sıra mühüm qərarlar qəbul olunub



Dünən AMEA Rəyasət Heyətinin növbəti iclası keçirilib. Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə gündəlikdə yer alan məsələlər haqqında məlumat verib.

Tədbirdə Bakı Dövlət Universitetinin 100 illik yubileyi ilə bağlı Tədbirlər Planı müzakirəyə çıxarılıb. AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev bildirib ki, gələn il Azərbaycan xalqının ictimai-siyasi, mədəni-mənəvi və intellektual inkişafında müstəsna rola malik, şərəfli inkişaf yolu keçmiş Bakı Dövlət Universitetinin 100 yaşı tamam olacaq. Prezident İlham Əliyevin bu təhsil müəssisəsinin yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncamı xatırladan alim vurğulayıb ki, Rəyasət Heyəti bu sənədə uyğun olaraq, Bakı Dövlət Universitetinin 100 illik yubileyi ilə bağlı qərar qəbul edib. Müzakirədən sonra Rəyasət Heyəti AMEA-da Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı Tədbirlər planını təsdiq edib, Akademiyanın elmi bölmə və müəssisələrinə müvafiq tapşırıqlar verib.

Rəyasət Heyətinin digər qərarı ilə akademik Vaqif Fərzəliyev Kimya Elmləri Bölməsinin akademik-katibi vəzifəsini icra edən təyin olunub.

İclasda AMEA-nın elmi bölmələrinin bürolarının yeni tərkibləri məsələsinə baxılıb. Bildirilib ki, hər bir bölmənin büro iclasında akademik-katiblərin müavinləri və büro üzvlüyünə seçkilər keçirilib, nəticələr Rəyasət Heyətini təqdim edilib.

Müzakirələrdən sonra Rəyasət Heyəti Kimya Elmləri, Yer Elmləri, Biologiya və Tibb Elmləri, Humanitar Elmlər və İctimai Elmlər bölmələrinin bürolarının yeni tərkiblərini təsdiq edib. Sonda kadr məsələsinə baxılıb.

**ZÜMRÜD**

## Sapı özümüzdən olan baltalar...

*Zahid Oruc: “Xalqımız yenə də həmrəylik nümayiş etdirərək, məkrli qüvvələrin təxribatçı və terrorçu ssenarilərinə qarşı möhkəm dayanacaq”*



Qürurverici şərəfli ordumuzun paytaxtımızın baş meydanında keçirdiyi paradı heyranlıqla izlənilməsi düşmənlərimizlə yanaşı, Avropada oturum alanları çox narahat edib. Xüsusilə də, din və etnik pərdələr altında fəaliyyət göstərən bu təxribatçılar sosial şəbəkələrdə insanları üsyan etmək çağırışı etmələri, iyunun 10-da Gəncədə baş verən terror zamanı iki polis zabitinin qətlə yetirilməsi bir daha onu təsdiqləyir ki, məqsədli şəkildə həyata keçirilən hadisələrin arxasında məkrli qüvvələr var. Sözügedən məsələ ilə bağlı Milli Məclisin deputatı Zahid Oruc bildirib ki, bu hadisələr məqsədli şəkildə həyata keçirilir və arxasında duran qüvvələr var: “Biz bu hadisəyə təkcə Gəncədə baş verənlər rakursundan baxmalı deyilik. Hesab edirəm ki, hadisənin arxasında duran səbəblər daha geniş miqyaslıdır. Mən bu hadisələri 2015-ci il hadisələri ilə müqayisə edərdim. O zaman Milli Təhlükəsizlik Nazirliyinin cinayətkar rəhbərliyi ifşa edilləndən sonra Gəncədə polis nəfərlərini qumbara ilə məhv etməyə çalışan qüvvələr - “Müsəlman Birliyi Hərəkatı”nın üzvləri ayağa qalxdılar. Heç şübhəsiz, istər o zaman, istərsə də indi baş verənlər arasında oxşarlıq var. Görünən odur ki, Azərbaycan üzərindən əməliyyat cızanlar, onun bütün coğrafiyasını əhatə etməyə çalışırlar. Nardarandan Gəncəyə qədər uzanan yol cızdılar. Daha böyük şəhərlərdə inanclı insanların adı ilə dindən öz çirkin məqsədləri üçün istifadə edir, ölkəmizdə qarışılıq yaratmaq istəyirlər”.

Millət vəkili onu da vurğulayıb ki, təxribatçı qüvvələr öz məqsədlərinə nail olmayacaqlar: “Heç şübhəsiz, Yunis Səfərov bu hadisənin təkbaşına iştirakçısı ola bilməzdi, onun alt qatı var. Şahid olacaqsınız ki, bu əməllərin üzərində sistemli analiz aparan qüvvələrin işi mövcuddur. Dünənki aksiyanı təşkil edənlər Yunis Səfərovun “siyasi-mənəvi-dinqan” qardaşlarıdır. Bu qüvvələr başa düşülür ki, onlar ifşa olunacaqlar. Bir gün onların da qapısı döyüləcək. Bu səbəbdən, təxribatçı ssenarilərini davam etdirirlər. Lakin onlar bu dəfə də, öz çirkin məqsədlərinə nail olmayacaqlar”.

### Azərbaycan dünyəvi quruluşa malik ölkə olaraq dövlət-din münasibətlərinə xüsusi önəm verib

Xaricdən idarə olunan bəzi radikal-dindar, ekstremist elementləri bu siyasət heç vaxt qane etməyib. Onlar daima din faktorunu qabartmaqla öz çirkin niyyətlərinə nail olmağa can atıblar. Həmin qüvvələrin ən ümdə məqsədi Azərbaycanın mövcud konstitusion quruluşunu dəyişib, yerində teokratik, sırf dinlə idarə edilən bir quruluş qurmaqdan ibarətdir. Y.Səfərovun Gəncədə törətdiyi hadisənin ilk anından bəyan etdik ki, həmin güllə yalnız Gəncənin icra başçısına atılmayıb, onun ünvanı Azərbaycanın dövləti və dövlətçiliyi olub. Qanunsuz etiraz aksiyası keçirməyə cəhd edən bir qrup başıpozuğun önünə silahla deyil, əliyalın çıxan ən yüksək rütbəli polis zabitlərini xəncərlə vurub qətlə yetirirlər. Bir daha aydın olur ki, Yunis olayının da, məhz ölkədə yaşanan enerji böhranı gününə düşməsi təsadüfi deyilmiş. Bir məqamı da qeyd edək ki, başıpozuq, zərərli elmentləri dəstəkləyənlər dövlətini qoruyarkən, ŞƏHİDLİK zirvəsinə ucalanlara da qısqanclıqla yanaşırlar. Bu, bir daha onların nə qədər həyasız olduğunu göstərməklə yanaşı, həm də nadanlıq və əclaflığını sübut edir.

**R.HÜSEYNOVA**

## Qafqaz Müsəlmanları İdarəsi Gəncə hadisələri ilə bağlı bəyanat yayıb



Qafqaz Müsəlmanları İdarəsi Gəncə hadisələri ilə bağlı bəyanat yayıb. İdarədən AZƏRTAC-a daxil olan bəyanatda deyilir: “Son günlər Gəncə şəhərində baş verən qətl və terror hadisələrini dərin təəssüf və ciddi narahatlıq hissi ilə qarşılayırıq. Hiddət doğuran odur ki, Vətənimizdə hökm sürən sabitlik və əmin-amanlıq, tərəqqi və quruculuq işlərinə, habelə xarici siyasət sahəsində uğurlarımıza və haqq mübarizəmizdə qələbələrimizə kölgə salmaq niyyəti güdən bəzi qüvvələr həm xaricdə, həm də daxildə məkrli niyyətlərini cidd-cəhdlə həyata keçirməyə çalışırlar. Bu cinayət əməllərində Allahın yaratdığı insanın qətlə yetirilməsini bütün bəşəriyyətə qarşı ağır cinayət kimi dəyərləndirən müqəddəs İslam dinimizin adından sui-istifadə olunması isə qətiyyən yolverilməzdir. Azərbaycanın din xadimləri və dindarlarının mövqeyini ifadə edərək, baş verən hadisələri dinlə bağlamaq cəhdlərini birmənalı olaraq rədd edir, bunu ölkəmizə düşmən olan bəzi qüvvələrin xaricdən siyasi məqsədlərlə yönləndirilən, cəmiyyətdə nifaq salmaq cəhdi kimi qiymətləndiririk. Ölkəmizdə mövcud sabitliyin pozulması, qarşıdurma yaratmaq məqsədilə aksiyalara cəlb etmək üçün dini şüarlarla çağırışlar edilməsini dövlətçiliyimizə, milli mənəvi dəyərlərimizə qarşı təxribat kimi dəyərləndirir, din pərdəsi altında fəaliyyət göstərən radikal qrupların cəmiyyətdə iğtişaşlara təhrik etməsini dövlətə qarşı terror, islami dəyərlərimizə zidd hesab edirik. Terrorçunun isə dini olmur.

Bu hadisələr zamanı ictimai asayişin keşiyində duran, xidməti vəzifələrini yerinə yetirərkən yaralanmış qardaşlarımıza Allah-Təaladan şəfa diləyir və şəhidlərimizə rəhmət deyərək ailələrinə dərin hüznlə başsağlığı veririk. Ümidvarıq ki, insan həyatına ali qiymət verən İslam dininin humanist dəyərlərinə zidd olaraq həyata keçirilən qətl və sui-qəsd hallarını kimliyindən asılı olmayaraq törədənlərin, məscidlərimizi dağıdan erməni ekstremistlərinin dəyirmanına su tökənlərin dövlətçiliyimizə təhlükə yaratmaq məqsədi güdən əməllərinə ciddi hüquqi qiymət veriləcəkdir.

Azərbaycan dindarları daim dövlətçiliyimizə sadiqdirlər. Din xadimləri, dindarlar hüquqi, demokratik dövlətin - Azərbaycan Respublikasının vətəndaşları olaraq qanunun aliliyini qəbul edir, ictimai-siyasi sabitliyi, davamlı sosial-iqtisadi tərəqqini və bunun təminatçısı olan dövlətimizin möhtərəm başçısını dəstəkləyirlər. Milli mənəvi dəyərlərimizə ali diqqət və qayğı göstərən Prezidentimizin siyasətini dəstəkləyən dindarlar dövlətin bu kimi təxribatların qarşısının qətiyyətlə alınması istiqamətində səylərini dəstəkləyirlər. Biz vətəndaşları, dindarları, xüsusən, gəncləri dövlətçiliyimizə qarşı yönləndirilən təxribat və məkrli çağırışlara uymamağa çağırırıq. Din xadimlərimiz xaricdən məkrlə yönləndirilən belə təxribatların mahiyyətini öz moizələrində xalqa çatdırmalıdırlar. Əminik ki, belə təxribatçı cəhdlər möhkəm təməllər üzərində təşəkkül tapmış dövlətçiliyimizin əsaslarını heç bir vəchlə sarsıda bilməz, inşallah!”.

# Qaçqın və məcburi köçkünlər dövlət qayğısı ilə əhatə olunur

***Ötən əsrin 90-cı illərin əvvəllərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində öz doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmış qaçqın və məcburi köçkünlər dövlətimizin diqqət və qayğısı ilə tam şəkildə əhatə olunublar. Xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Ulu Öndərimiz Heydər Əliyev bu təbəqənin sosial müdafiəsinin gücləndirilməsi üçün Dövlət Proqramları, Sərəncam və fərmanlar imzalamışdır. Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların məskunlaşma səviyyəsinin yaxşılaşdırılması məqsədilə Ümummilli Lider Heydər Əliyevin Sədrliyi ilə 1998-ci il iyunun 27-də ümumrespublika müşavirəsi keçirildi. "İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir" deyən Ulu Öndər elə həmin il Biləsuvar rayonu ərazisindəki çadır düşərgələrinə səfər etdi.***

Bununla da, məcburi köçkünlərin sosial problemlərinin, onların həyat səviyyəsinin yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən əməli işlərə, çadır düşərgələrinin ləğvinə başlanıldı. 2002-ci il sentyabr ayının 13-də Ulu Öndərin iştirakı ilə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Ermənistan Respublikasından olan qaçqınlar və Xocalıdan olan məcburi köçkünlər üçün salınmış yeni qəsəbə istifadəyə verildi. Bütövlükdə isə qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılmasını daimi diqqət mərkəzində saxlayan Ümummilli Lider Heydər Əliyev beynəlxalq səviyyədə keçirilən çoxsaylı tədbirlərdə iştirak etməklə yanaşı, əraziləri işğal olunmuş rayonların ictimaiyyət nümayəndələri, qaçqın və məcburi köçkünlərlə 20-dən çox görüş keçirmişdir.

1998-ci ildə "Azərbaycan Respublikasının vətəndaşları haqqında", 1999-cu ildə "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlara imza atan Prezident Heydər Əliyevin göstərişi ilə dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqının, eləcə də kommunal və digər xidmətlərin ödənişindən azad edildilər. Bütövlükdə isə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəldilən vəsaitin həcmi 1993-2003-cü illər arasında 90 dəfə, yemək xərcləri üçün müavinət 60 dəfə, kommunal xidmət xərcləri 120 dəfə artırıldı. Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulan uğurlu neft strategiyası çərçivəsində əldə edilən ilk vəsait məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi.

## Qaçqın və köçkünlərin sosial müdafiəsi təmin olunur

Dahi Öndər Heydər Əliyevin düzgün, məntiqi təfəkkürə əsaslanan siyasətini müasir dövrün tələblərinə uyğun yaradıcılıqla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev də qaçqın və məcburi köçkünlərin problemlərinin həllini ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Cənab İlham Əliyev 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirmiş və ölkədə bir dənə də olsun, çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. Ermənistanın işğalçılıq siyasətinin acı nəticəsi olaraq yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın sosial problemlərinin həllini diqqət mərkəzində saxlayan dövlət başçısı İlham Əliyev 2004-2016-cı illərdə qaçqın və məcburi köçkünlərlə bağlı keçirilən müxtəlif tədbirlərdə 31 dəfə, o cümlədən, yeni salınmış yaşayış qəsəbələri və məhəllələrinin böyük əksəriyyətinin açılışında şəxsən iştirak etmiş, həmçinin problemə həsr olunmuş bir beynəlxalq konfrans və iki geniş müşavirə keçirilmiş, bir Dövlət Proqramı və ona 2 əlavə təsdiq edilmişdir. 2006-cı ildə Bərdə və Ağcabədi rayonlarındakı 4 çadır düşərgəsi, 2007-ci ilin dekabrında isə Saatlı və Sabirabad rayonları ərazisindəki 3 çadır düşərgəsi ləğv edilmişdir. Bundan əlavə, ölkə üzrə istismara yararsız 16 fin tipli qəsəbə ləğv edilmiş, orada müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri yeni salınmış qəsəbələrə köçürülmüşlər. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Bizim torpaqlarımız azad olunandan sonra biz həmin torpaqlarda bundan da gözəl binalar tikəcəyik. Bütün şəhərləri bərpa edəcəyik və öz vətəndaşlarımızı doğma torpaqlara qaytaracağıq. O gün gələcək, mən buna inanıram, şübhə etmirəm. Əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir".

> *İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir.*
>
> ***Ümummilli Lider Heydər Əliyev***



Azərbaycan Prezidenti İlham Əliyevin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında 23 yanvar 2017-ci il tarixli Fərman imzalaması da qaçqın və məcburi köçkünlərə göstərilən dövlət qayğısının daha bir nümunəsidir. Bütövlükdə isə ötən müddətdə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı beynəlxalq normalara uyğun tam hüquqi baza yaradılmış, ölkə Prezidenti tərəfindən 96 Fərman və Sərəncam imzalanmış, Nazirlər Kabineti 368 qərar və sərəncam, Milli Məclis isə 34 qanun qəbul etmişdir. Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsində, onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasında mühüm rol oynayan dövlət proqramları və əlavələr, eləcə də digər sənədlər hazırda da uğurla icra edilir.

## Məcburi köçkünlərin öz yurd-yuvalarına qayıdacağı gün uzaqda deyil

Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi sahəsində aparılan genişmiqyaslı işlərin davam etdirilməsi bu kateqoriyadan olan insanlar tərəfindən çox yüksək qiymətləndirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə də doğma torpaqlarından didərgin düşən soydaşlarımızın problemlərinin daim diqqət mərkəzində saxlanıldığını göstərdi. Müşavirədə bir daha təsdiq olundu ki, məcburi köçkünlərin həyat şəraitinin ildən-ilə yaxşılaşdırılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birbaşa nəzarətində saxladığı məsələdir və bu istiqamətdə davamlı tədbirlər görülür. Məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. Onların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Uğurlu sosial-iqtisadi siyasət ölkənin bütün sahələrdə dinamik inkişafı ilə yanaşı, bu təbəqədən olan insanların problemlərinin həlli istiqamətində də mühüm irəliləyişlərə nail olunmasına imkan verib. İndiyə qədər məcburi köçkünlər üçün 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb, 250 min qaçqının və məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılması təmin edilib. Amma məcburi köçkünlərin mənzil problemi təkcə dövlət tərəfindən inşa olunan ev və binalar hesabına həll olunmur. "Azərbaycanın sürətli inkişafı, dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən, sosial sferaya ciddi sirayət edib və bir çox sosial proqram və layihələrdə real əksini tapıb". Bu fikirləri açıqlamasında Milli Məclisin deputatı Mahir Abbaszadə deyib. M.Abbaszadə bildirib ki, qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə göstərilən dövlət dəstəyi də, xüsusilə diqqətəlayiqdir. Onun sözlərinə görə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma yurdlarından qovularaq qaçqın və məcburi köçkünə çevrilən soydaşlarımızın yeni evlər və mənzillərlə təmin olunması istiqamətində son illər əhəmiyyətli tədbirlər görülür. Ölkəmizdə qaçqın və məcburi köçkünlər yüksək dövlət qayğısı ilə əhatə olunublar. "Azərbaycan dövləti qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına, onların sosial müdafiələrinin gücləndirilməsinə, məşğulluqlarının təmin edilməsinə davamlı qayğı göstərir, mühüm qərarlar qəbul olunur. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərman da bu istiqamətdə qəbul olunmuş mühüm qərardır".

## Böyük Qayıdışa hazırlıq görülür

Dövlətimizin qaçqın və məcburi köçkünlərə göstərdiyi diqqət və qayğı beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Arun Sala-Nqarmo bununla bağlı demişdir: "Qeyd etmək istərdim ki, Azərbaycan hökuməti məcburi köçkünlərə çox böyük diqqət göstərir və bu mənada, bir çox ölkələr üçün nümunə ola bilər. Bu faktı hələ 2007-ci ildə Azərbaycanda səfərdə olmuş BMT Baş katibinin məcburi köçkünlərin hüquqları üzrə nümayəndəsi Valter Kalin hazırladığı hesabatda da qeyd etmişdi. Əminəm ki, bu hal 2011-ci ilin martında Azərbaycana dair dərc olunacaq yeni hesabatda da öz əksini tapacaq".

Bütövlükdə isə, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün ötən 21 ildə 6,2 milyard manat vəsait sərf edilmişdir. Həmin vəsaitin 2,8 milyard manat büdcə vəsaiti, 2 milyardı Dövlət Neft Fondunun, 1,4 milyardı isə beynəlxalq maliyyə qurumları və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların vəsaitidir. Ötən müddətdə məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 4 dəfə, kommunal xidmətlərə görə vəsaitin miqdarı 4,5 dəfə, "Dövlətqaçqınkom"un illik büdcəsi isə 5,5 dəfə artmışdır. Əməkqabiliyyətli 380 min məcburi köçkündən 161 min nəfəri daimi işlə təmin edilmiş, 200 min nəfəri isə mövsümi işlərə cəlb edilmişdir. Ötən illər ərzində Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 2 min nəfərdən çox məcburi köçkün sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 44 milyon manat məbləğində güzəştli kredit verilmişdir. Yeri gəlmişkən, 2016-cı ildə bir nəfər məcburi köçkünə xərclənən vəsaitin həcmi təxminən 750 manat təşkil etmişdir ki, bu da dünyanın digər münaqişə zonaları ilə müqayisədə ən yüksək göstəricidir. Həyata keçirilmiş bu kimi tədbirlər nəticəsində son 13 ildə məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 12 faizədək azalmışdır.

Tam əminliklə demək olar ki, dövlətimizin apardığı siyasət yaxın vaxtlarda öz bəhrəsini verəcək. Beləliklə, qaçqın və məcburi köçkünlərimiz öz yurd-yuvalarına qayıdacaqlar. Artıq Böyük Qayıdışın ilkin mərhələsi Cocuq Mərcanlı, Günnüt və digər işğaldan azad olunan ərazilərimizə insanların qayıdışı ilə nümayiş olunub.

***Ceyhun Rasimoğlu***
***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün***

# Müxalifət “liderləri”nin Gəncə blefi

## Yaxud bu dəfə də xalqa yalan danışdılar

***Gəncə hadisələrinin ardınca, ölkənin bir sıra tanınmış ictimai-siyasi, mədəniyyət və s. təmsilçiləri sözügedən olayları, xüsusilə, kriminal və radikal dindar dairələrin iki polis zabitini qətlə yetirmələrini hiddətlə pislədilər, baş verənləri Azərbaycan dövlətçiliyinə qarşı təxribat və terror adlandırdılar. Əlbəttə, hər bir vətənsevər azərbaycanlı bu hadisələrə qarşı qətiyyətli vətəndaşlıq mövqeyini ortaya qoymalıdır və qoymaqdadır. Lakin məsələnin digər məğzi də var ki, bu da, bilavasitə ümumxalq maraqlarından çıxış etməyə elə də maraqlı olmayan dağıdıcı müxalifət “liderlərinin” sərgilədikləri qeyri-səmimi mövqeləridir.***

### Öz gərəksiz və çeynənmiş “versiyalarını” ictimailəşdirərək, guya hadisələrə biganə qalmadıqlarını göstərməyə çalışdılar

Daha doğrusu, hadisələrin üzərindən uzun saatlar keçdikdən sonra, AXCP və Müsavat partiyalarının sədrləri iki polis zabitinin həyatlarını itirdiyinə görə “təəssüfləndiklərini” deyərək, baş verənləri təxribat adlandırdılar. Düzdür, digər ənənəvi müxalifət siyasi təşkilatları bu mövzuda bəyanat yaysalar da, onların fikirləri cəbhəçi və müsavatçı sədrlərin fikirlərindən daha səmimi göründü. Misal üçün, AMİP, “VİP”, ADP, KXCP kimi partiyalar, ümumiyyətlə, bu kimi məsələlərdə



ümumdövlət maraqlarından çıxış etməyin doğru olduğunu bəyan etdilər. Fəqət, nə Əli Kərimli, nə də Arif Hacılı bənzər ifadələri işlətməyərək, öz gərəksiz və çeynənmiş “versiyalarını” ictimailəşdirərək, guya hadisələrə biganə qalmadıqlarını göstərməyə çalışdılar. Amma ki...

### Məhz sosial şəbəkə trollarını dövlət maraqları əleyhinə danışdıranlar da Ə.Kərimli və A.Hacılı kimi partiya sədrləri olub

Amma daha bir nüansı unutmamalıyıq. Məsələn, unutmamalıyıq ki, Gəncədə hadisələr başlayar-başlamaz, Avropa ölkələrində oturub sosial şəbəkələrdə xalqı “qiyama” səsləyənlərin hər birinin həm AXCP, həm də Müsavat sədrləri ilə ən azından, virtual təmasları var. Elə də uzağa getməyərək, son prezident seçkilərini xatırlamaq kifayətdir ki, məhz sosial şəbəkə trollarını dövlət maraqları əleyhinə danışdıranlar da Ə.Kərimli və A.Hacılı kimi partiya sədrləri olub. Onlar Avropadakı dostları - Orduxan Teymurxan, Emin Milli, Emin Hüseynov və digərlərinin küçələrdə keçirdikləri mənfur aksiyalarını dəstəkləyir, hətta “Azadlıq” qəzetinin “Facebook”dakı rəsmi səhifəsində, o cümlədən, Ə.Kərimlinin özünün və AXCP-nin gənclər komitəsinin səhifələrində həmin aksiyalar geniş şəkildə təbliğ edilir, dövlət əleyhinə şüarlar verilirdi. O cümlədən, Müsavat partiyasının media qurumu olan “Basta.info” saytı da eynilə bənzər variantlardan istifadə edərək, müxtəlif çağırışlar edirdi. Məgər bütün bunlar birbaşa Azərbaycanın dövlət maraqlarını xarici dairələrə satmaq deyildimi? Məgər həmin ərəfələrdə onlar ölkədə hərc-mərcliyin, xaosun və vətəndaş itaətsizliyinin baş verməsini arzulamırdılarmı? Əlbəttə ki, arzulayırdılar! Elə Gəncə olayında da Ə.Kərimli və A.Hacılı kimiləri start vəziyyətində dayanıb, vəziyyətin onların xeyrinə dəyişəcəyini azğınlıqla gözləyirdilər.

### Aha, yazdım buraya...

Lakin bu, baş vermədi və xalq dövlətinin yanında dayandı. Məhz bütün bunlardan sonra, necə deyərlər, “toydan sonra nağara” tipli “təəssüf edirik” bəyanatını ictimailəşdirdilər. Söz yox ki, onların bəyanatlarını sağlam təfəkkürə malik olan heç bir ictimaiyyət üzvü səmimi olaraq qəbul etmədi. Əksinə, həm Ə.Kərimlinin, həm də A.Hacılının oynadıqları oyun açıq-aşkar bir belf idi və bunu, necə deyərlər, bilənbildi, görən də görmüş oldu. Çox yəqin ki, dəfələrlə maskaları yırtılmış müxalifət “liderlərinin” yaxın zamanlarda növbəti maskaları da yırtılmış olacaq. Hətta Gəncədə baş verən təxribat və terror hadisəsi altından Ə.Kərimlinin də, A.Hacılının da adı çıxa bilər. Türk qardaşlarımız demişkən, aha, yazdım buraya...

**Rövşən NURƏDDİNOĞLU**

# Sosial şəbəkələrdə “məzlumluq” traktı

***Gəncədə baş verən məlum olayların ardınca, sosial şəbəkələrdə passivləşərək paslanmış trollar yenidən meydana çıxıb.***

Orduxan Teymurxan bir tərəfdən, Emin Milli digər tərəfdən, digər bənzər simasızlar isə başqa tərəfdən, necə deyərlər, yenidən ac çaqqallar və leş yeyən quzğunlartək Azərbaycan dövlətinin üzərinə hücuma keçməyə başladılar. Hətta belə, siyasi leşyeyənlərin ətrafında sözdə “halal” deyib, əməldə haramxoşluqla dolanan “mollalar” da peyda olub. Özü də kimlərin yanında? Cinsi orientasiyalarını itirmiş orduxanların, Xocalı soyqırımının adı gələndə kameralar önündə həyasızcasına hırıldayıb əsl sifətini göstərən Emin Hüseynovların, o cümlədən, millilikdən əsər-əlamətləri olmayan Emin Millilərin, Qarabağ mövzusunda arxasını həmin mövzuya çevirən Xədicə İsmayılın yan-yörəsində. Dəmə, uzun illər Azərbaycanın əleyhinə fəaliyyət göstərən qonşu dövlətin xüsusi xidmət orqanlarının verbovkasına düşmüş bir xain (!!!) “xalq qəhrəmanıymış”... Özü də dövlətin maraqlarını qoruyan iki polis zabitinin qətlə yetirilməsində həmin “qəhrəman”ın xüsusi əməyi də varmış. Yəni o, dövlətin məmuruna qarşı sui-qəsd etməklə, digərlərini daha ağır cinayətlər törətməyə, öz təbirlərincə desək, “qiyama” səbəbkarmış və s. Və dəmə, buna “dini qisas” deyilirmiş (?!-R.N.).



Orta P.S.: Sosial şəbəkələrdə “məzlumluq” traktı fonunda erməni əzabkeşliyi, məhz buna deyərlər, məncə...

Dəyərli oxucularımız, əminik ki, bu yazını nəzərdən keçirənlərin arasında dindar kəsim də mövcuddur. Belə olan halda, sual edilə bilər: Əcəba, səhərsəhər evindən öz övladlarını, bəlkə də nəvələrini, həmçinin, sevdiklərini öpüb-bağırlarına basaraq, işə gedən, dövlətimizin müdafiəsinə yollanan, sonradan isə şəhid olan iki polis zabitlərimizin şəkillərini bəlli sosial şəbəkələrdə gülüş smaylikləri ilə paylaşmağa hansı adı vermək olar?! Şərəfsizlikmi?! Xeyr!!! Əclaflıqmı?!! Xeyr!!! Alçaqlıqmı?! Yenə də xeyr!!! Bəs nə, necə, hansı cür adlandıraq beləlerini?! Bunu artıq özünüz müəyyənləşdirin, çünki senzuramı burada müəllif olaraq, özüm qoydum!!! Ancaq hazırda da sosial şəbəkələrdə guya Avropadakı “müxalifətçilərin” guya ki, baş verən hadsədən “üzüldüklərini” güc-bəla ilə murdar ağızlarından çıxarıb-səsləndirməri insanda kəskin ikrah hissləri yaradır. Çünki bu kimi məsələlərdə ortaya düşüb açıq-aşkar kuklalıq edən bu gədalar zümrəsi, əslində, xaosun, anarxiyanın, vətəndaş itaətsizliyinin bariz çağırışçılarıdırlar. Özü də utanmadan-qızarmadan iddia edirlər ki, baş verənlərdən, yəni baş verənlərin hansı qüvvələr tərəfindən yönləndirilməsindən bixəbərdirlər! Təbii ki, bunlar, şərəfsizlik və xəyanət sindromunun xəmirindən yoğrulmuş qarğa və quzğunlar, çaqqallar, giyənlər üçün müqəddəs heç nə yoxdur. Ona görə də, hərəsi çiyninə bir bel çantası alaraq, düşüblər Avropadakı erməni, fars, daha nə bilim hansısa qurumların banklarının qapı astanalarına. Nədir ki, biz sataq, siz ödəyin... Bax, məsələ də bundadır, əziz oxucularımız. Gəncədə baş verən terror olayının ardınca, sapı özümüzdən olan baltaların yenidən yuyulmamış qaşıq kimi ortaya düşmələri qeyd edilən bir sıra faktları çır-çılpaqlığı ilə ortaya qoydu. Sadəcə, dövlət və Vətən uğrunda şəhid düşən igid oğullarımızın üzərinə bu qədər şərəfsizliklə davranmaq reallığı belə deməyə əsas verir - sabah Qarabağımızın işğalda qalan ərazilərinin azad edilməsi üçün canlarından keçən şəhidlərimiz də, eynilə hər iki polis zabitimiz kimi, belələri tərəfindən gülüş smaylikəri ilə “qiymətləndiriləcək”. Bax, onda kim necə davranacaqsa, bunu da deyə bilməyəcəyəm. Çünki yenidən özüm-özümün yazıma senzura qoymalı oldum...

**Rövşən NURƏDDİNOĞLU**



**Təhmasib Novruzov**

# Vətəndaş, yoxsa Vətənə daş?

***Bu gün Azərbaycanda kimi dindirirsən vətənpərvərlikdən, Vətənə sevgidən, milli vurğunluqdan ağız dolusu danışır. Ümumiyyətlə, dünyanın ikiüzlüyü, sanki insanların da ikiüzlülüyünü adiləşdirib. Şərəfsizin şərəfdən, vicdansızın vicdandan və s. danışması adi hal alıb. Həm də iç üzü açılanda, əsl siması üzə çıxanda da, utanıb-qızarmaq, xəcalət çəkmək əvəzinə, özünə haqq qazandırmaq cəmiyyətimizdə adi hala çevrilib. Bəzən hətta özlərinə haqq qazandırmaq üçün təmiz, vicdanlı kimsələrə bağırmaqdan da çəkinmirlər. Atalar demiş, oğru necə çığırırsa, doğrunun bağrı yarılır!***

Azərbaycanın ən şərəfli tarixini yaşadan Qədim Gəncədə baş verənlərə hüquqi qiymət vermək fikrində deyiləm. Bu, hüquq-mühafizə orqanlarının səlahiyyətinə daxildir və əminəm ki, onlar bu vandalizm aktına layiqincə qiymət verəcək və təkcə onu törədənlər deyil, törətdirənlər də ən ağır cəza alacaqlar. Ona görə əminəm ki, indi nə Azərbaycan 90-cı illərin Azərbaycanı deyil, nə də hüquq-mühafizə işçiləri o dövrün səriştəsiz və bacarıqsız işçilər deyil. Mənə maraqlı gələn bu hadisələrin mənəvi və siyasi tərəfidir. Din pərdəsi altında, guya dini müdafiə adı altında günahsız insanları qətlə yetirib, qadınlarını dul, ata-analarını oğulsuz, övladlarını atasız qoymaq ikili simanın ən bariz nümunəsidir. Hər bir müsəlman yaxşı bilir ki, islamda ən böyük günah təqsirsiz, suçsuz insana əziyyət verməkdir, nəinki belə adamları qətlə yetirəsən! Bu günahın babalını başa düşürmü bu “islam müdafiəçiləri”? Kimə məlum deyil ki, bu gün ikili standartlarla idarə olunan dünyada güc sahibləri dövlətlərə və xalqlara güclərini birbaşa (el arasında deyildiyi kimi, kişi kimi) deyil, məhz müxtəlif formatlı dolayı yollarla nümayiş etdirirlər. Bu dolayı yollar arasında həmin güc mərkəzlərinin ən sınanmış vasitələrindən biri “dini müdafiə” pərdəsi altında törətdikləri əməllərdir. “Əl-Qaidə”, “Taliban”, “Hizbullah”, “İşid”, “PKK” kimi insanlıq cəlladlarının toplaşdığı, Qərb dairələri tərəfindən himayə olunan terror təşkilatları da qadınları, uşaqları, qocaları öldürüb, adını dini müdafiə qoymalarının on illərdir ki, şahidi olmuruqmu? Həmişə fəxr etmişik ki, dünyanı başına alan terror şəbəkəsi ölkəmizə müdaxilə edə bilmir. Sən demə, ölkəyə girə bilməyən terror şəbəkəsi və onları idarə edənlər Azərbaycanın içində vətən, xalq, millət, dövlət və islam dəyərlərini öz maraqlarına qurban verməyə hazır olan məxluqların axtarışındaymış. Nə yazıqlar ki, axtardıqlarını tapa bildilər və Azərbaycan dövlətçiliyini sarsıtmaq məqsədilə onlardan istifadə edə bildilər. Bu, məsələnin mənəvi tərəfi! Qaldı baş verənlərə siyasət qütbünə qiymət verilməsinə, təəssüf edirəm ki, burda da vəziyyət ürəkaçan deyil. Yaxın keçmişdə Türkiyəyə uzanan əllərin kəsilməsi naminə qardaş ölkənin ən radikal müxalifəti belə, siyasi ambisiyasını kənara qoyub, iqtidarla vahid mövqedən çıxış etdilər. Amma bizdə, nə yazıqlar ki, bunun əksi ilə rastlaşdıq. Baş verənlərə müxalifət düşərgəsinin sərgilədiyi mövqe, siyasi baxımdan, hələ nə qədər kal olduğumuzu bir daha ortaya qoydu. İnsan həyatına qəsdin yaxşı hal olmadığını deyib, ardınca baş verənlərdə iqtidarı günahlandırması, müxalifət liderinin öz dövlətinə, xalqına hansı prizmadan baxdığının real göstəricisidir. Mənim anladığıma görə, müasir dünyada heç bir ölkədə iqtidar idarə etdiyi dövlətin sahibi deyil. Dövlətin sahibi xalqdır, vətəndaşlardır. İqtidarlar dəyişəndir, dövlət isə əbədidir. Əbədi olan dövlətə münasibətdə siyasi baxışlar ola bilər, amma o şey ki, bütövlükdə, dövlətin mənafelərinə toxunur, o zaman hər kəs ölkəsi naminə, ona sinə gərməyə borcludur. Məmməd Arazın təbirincə desək, sinəmizdə vətən daşı gəzdirməsək, ölkənin layiqli vətəndaşı ola bilmərik. Vətəndaş olaq! Vətənə daş yox, sinələrdə vətən daşı gəzdirən olaq. Dünyanın gözü qarşısında analoqu olmayan sürətlə irəliləyən bir məmləkəti, üzdə tərifləsələr də, bunu həzm edə bilməyən ikiüzlü dünya güclərinin içimizə qədər əl uzatmasına imkan verməyək...

# Yetkinlik yaşına çatmayan uşaqların hüquqlarının müdafiəsi

***Digər qanunvericilik aktı kimi yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında 24 may 2005-ci il tarixli AR Qanunudur.***

3 fəsil və 26 maddədən ibarət olan bu Qanun (I fəsil-Ümumi müddəalar-maddə 1-8; II-fəsil-Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikasını həyata keçirən orqan və müəssisələrin fəaliyyətinin əsas istiqamətləri-maddə 9-19; III fəsil-Yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi ilə bağlı materiallar üzrə icraat-maddə 20-26) yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyir, bu sahədə dövlət orqanlarının, müəssisələrin və təşkilatların hüquq və vəzifələrini müəyyən edir.

Qanunla yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası dedikdə, sosial təhlükəli vəziyyətdə olan ailələrlə və yetkinlik yaşına çatmayanlarla fərdi profilaktik işlə birgə həyata keçirilən, yetkinlik yaşına çatmayanların baxımsızlığına, kimsəsizliyinə, habelə, onlar tərəfindən hüquq pozuntularının törədilməsinə imkan yaradan səbəb və halların aşkar edilməsinə və aradan qaldırılmasına yönəldilmiş sosial, hüquqi, pedaqoji və digər tədbirlər sistemi başa düşülür. Qanunun 3-cü maddəsi ilə yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikasının əsas vəzifələri kimi bunlar fərqləndirilir: yetkinlik yaşına çatmayanların baxımsızlığının, kimsəsizliyinin və hüquq pozuntularının qarşısını almaq və bunların yaranmasına imkan verən səbəb və halları aradan qaldırmaq; yetkinlik yaşına çatmayanların hüquqlarını və qanuni mənafelərini qorumaq; sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların sosial-pedaqoji reabilitasiyasını təmin etmək; yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb edilməsi hallarını aşkar etmək və aradan qaldırmaq; yetkinlik yaşına çatmayanlar tərəfindan alkoqollu içkilərin, yaxud AR qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş və ya həkimin təyinatı olmadan narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsi hallarını aşkar etmək və aradan qaldırmaq.

Nadir Adilov yazır: "Qeyd edilən normativ-hüquqi aktlar, bilavasitə uşaqların hüquqlarının müdafiəsi istiqamətində formalaşmışdır. Bununla AR tərəfindən bir sıra digər normativ-hüquqi aktlar da qəbul edilmişdir ki, bunlarda da uşaq hüquqlarının müdafiəsi ilə əlaqədar kifayət qədər müddəalar mövcuddur.

Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiya və sosial müdafiəsi haqqında 25 avqust 1992-ci il tarixli AR Qanununun 3-1-ci (Psixoloji-Tibbi-Pedaqoji Komissiya), 13-cü (Uşaqlar arasında əlilliyin profilaktikası), 15-ci (Əlillərin təhsil alması və peşə hazırlığı keçməsi üçün şəraitin təmin edilməsi), 16-cı (Məktəbəqədər yaşlı əlil uşaqların təlim və tərbiyəsi), 17-ci (Məktəb yaşlı əlil uşaqların evdə təhsili), 38-ci (Əlil uşaqların məktəbdənkənar tərbiyəsi). 19-cu (Əlillərin orta, orta ixtisas və ali təhsili), 20-ci (Stasionar müəssisələrdə əlil uşaqların təlim-tərbiyəsi), 21-ci (Əlillərin peşə hazırlığı və ixtisasının artırılması), 42-ci Tibbi xidmət, dərman preparatları və protezlər ilə təminat), 46-cı (İnternat evlərdə və digər stasionar sosial yardım müəssisələrində olan əlillərin hüquqları) maddələri xüsusi qeyd edilə bilər.

7 oktyabr 1992-ci il tarixli AR Təhsil Qanununun 14-cü (Məktəbəqədər tərbiyə müəssisələri), 16-cı (Sosial yardıma və sağlamlıqlarının bərpasına ehtiyacı olan uşaqlar üçün təlim-tərbiyə müəssisələri) maddələri, bilavasitə uşaq hüquqları ilə əlaqədar müddəaları əks etdirir.

10 noyabr 1992-ci il tarixli Sanitariya-Epidemioloji Salamatlıq haqqında AR Qanununun 23-cü (Uşaqların və yeniyetmələrin tərbiyəsi, təhsili və istehsalat təcrübəsi şərtlərinə əməl edilməsi sahəsində vəzifələr), 39-cu (Sanitariya qanunvericiliyini pozmağa görə məsuliyyət) maddələri də uşaq hüquqları sahəsində müddəaları nəzərdə tutur.

23 dekabr 1997-ci il tarixli Bədən Tərbiyəsi və İdman haqqında AR Qanununun 10-cu (Tədris və məktəbəqədər tərbiyə müəssisələrində bədən tərbiyəsi və idman), 13-cü (Yaşayış və kütləvi istirahət yerlərində bədən tərbiyəsi və idman) maddələrində xüsusi müddəalar nəzərdə tutulmuşdur.

30 sentyabr 1998-ci il tarixli Azərbaycan Respublikasının Vətəndaşlığı haqqında AR Qanununun 13-cü (Valideynləri naməlum uşaqların vətəndaşlığı), 19-cu (Valideynlərin vətəndaşlığı dəyişdikdə uşaqların vətəndaşlığının dəyişməsi), 20-ci (Üzərində qəyyumluq və ya himayəlilik müəyyən edilmiş uşağın AR vətəndaşlığının saxlanması), 21-ci (Valideynlərdən biri AR-in vətəndaşlığını əldə etdikdə uşaqların AR vətəndaşlığını əldə etməsi), 22-ci (Valideynlərdən birinin AR vətəndaşlığına xitam verildikdə uşaqların AR vətəndaşlığını saxlaması), 23-cü (Övladlığa götürüldükdə uşaqların AR vətəndaşlığını əldə etməsi), 24-cü (Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə uşaqların vətəndaşlığının müəyyən edilməsi), 25-ci (Uşaqların vətəndaşlığının dəyişməsi üçün onların razılığının zəruriliyi) maddələrində problemlə əlaqədar əsas prinsipial müddəalar əks olunmuşdur.

Vətəndaşlıq haqqında bir sıra Konvensiyaların iştirakçısı kimi AR tərəfindən vətəndaşsızlıq hallarının azaldılması istiqamətində mühüm fəaliyyət həyata keçirilir. Belə ki, bu zaman həm "qan hüququ", həm də "torpaq hüququ" prinsiplərinin əsas kimi götürülməsi və vətəndaşlığın əldə edilməsinin sadələşdirilmiş qaydasının müəyyən edilməsi xüsusi qeyd edilməlidir".

Yeyinti məhsulları haqqında 18 noyabr 1999-cu il tarixli AR Qanununun 9-cu maddəsində qeyd edilir ki, pəhriz və uşaq qida məhsullarının istehsalında zəhərli kimyəvi və dərman maddələrinin, bioloji, mikrobioloji və digər preparatların istifadəsinə yol verilmir.

İctimai televiziya və radio yayımı haqqında 28 sentyabr 2004-cü il tarixli AR Qununun 14-cü maddəsinin 9-cu bəndində deyilir ki, reklamına AR-in qanunvericiliyi ilə məhdudiyyətlər qoyulmuş, o cümlədən, uşaqların fiziki, əqli və mənəvi inkişafına ciddi zərbə vuran məhsulların reklamı qadağandır.

İnsan Alverinə qarşı Mübarizə haqqında 28 sentyabr 2005-ci il tarixli AR Qanununda da uşaq hüquqları ilə əlaqədar mühüm müddəalar vardır. Məsələn, 16-cı maddə insan alverinin qurbanı olmuş uşaqlara yardım göstərilməsi məsələlərinə həsr edilmişdir. Həmin maddənin 1-ci bəndində deyilir ki, insan alverinin qurbanı olmuş uşağa yardım göstərilərkən, onun mənafeləri üstün tutulmalı. Uşaq Hüquqları haqqında AR Qanununa, Uşaq Hüquqları haqqında BMT Konvensiyasına, habelə, AR-in digər qanunlarına və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq uşağın hüquqlarının və qanuni maraqlarının qorunması üçün bütün tədbirlər görülməlidir.

AR Hökuməti tərəfindən qəbul edilmis bir sıra dövlətdaxili normativ-hüquqi aktlar da uşaqların hüquqlarının təminatında xüsusi rol oynayır. Məsələn, AR Nazirlər Kabinetinin 11 noyabr 2005-ci il tarixli 207 saylı qərarı ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrində saxlanılmasına yol verməyən xəstəliklərin Siyahısı", AR Nazirlər Kabinetinin 13 may 2003-cü il tarixli 65 saylı qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Əsasnamə", "Azərbaycan Respublikasının xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramının (2005-2009-cu illər)" təsdiq edilməsi haqqında AR Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli 20 saylı qərarı xüsusi qeyd edilməlidir.

N.Adilovun fikrincə, AR-də xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramının (2005-2009-cu illər) məqsədi: xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüququnun yerinə yetirilməsi, belə kateqoriyadan olan uşaqların hamısı üçün bərabər təhsilalma şəraitinin yaradılması; inteqrasiyalı (inkluziv) təlimə keçidin reallaşdırılması: təhsil müəssisələrində bütün uşaqların təhsili üçün bərabər imkanların yaradılması; dövlət himayəsində olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi; müvafiq klassifikasiyaya uyğun olaraq, bütün kateqoriyadan olan xüsusi qayğıya ehtiyacı olan uşaqların ölkə üzrə qeydiyyatının aparılması və təhsilə cəlb edilməsi; xüsusi təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının müasir standartlara uyğunlaşdırılmasıdır.

Proqramda əsas gözlənilən nəticələr kimi aşağıdakılar qeyd edilir; xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili üzrə normativ- hüquqi baza təkmilləşdiriləcək; bütün kateqoriyadan olan xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilməsi həyata keçiriləcək; xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim-tərbiyəsi üçün əlverişli şərait yaradılacaq; xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil müəssisələrinin maddi-texniki və tədris bazası möhkəmlənəcək; inteqrasiyalı (inkluziv) təlim həyata keçiriləcək; xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin səmərə və keyfiyyəti yüksələcək; xüsusi təhsil müəssisələri üçün pedaqoji kadr hazırlığı təkmilləşəcək; xüsusi təhsil müəssisələrində fəaliyyət göstərən pedaqoji kadrların ixtisaslaşdırma təhsilinə cəlb edilməsi sahəsində səmərəli sistem yaranacaq; xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlamlığının mühafizəsi və reabilitasiyası həyata keçiriləcək; xüsusi təhsil müəssisələri üçün yeni tədris planları və proqramları, dərsliklər və dərs vəsaitləri hazırlanacaq; xüsusi təhsil müəssisələrində müasir idarəetmə mexanizmləri tətbiq ediləcək, idarəetmə sistemi təkmilləşəcək; təhsil müəssisələrində müasir monitorinq və qiymətləndirmə mexanizmləri tətbiq ediləcəkdir.

Bu istiqamətdə digər proqramlar da qeyd edilməlidir. Məsələn, AR Nazirlər Kabinetinin 4 aprel 2000-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İstedadlı və yaradıcı uşaqların və gənclərin sosial və iqtisadi problemlərinin həllinə və onların qabiliyyətinin inkişafına yönəlmiş Dövlət Proqramı", AR Nazirlər Kabinetinin 17 aprel 2006-cı il tarixli qərarı ilə təsdiq edilmiş "Xüsusi istedada malik olan uşaqların yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-1010)" və s.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Daha sonra, AR Nazirlər Kabinetinin 10 may 2005-ci il tarixli 78 saylı qərarı ilə "Xüsusi təhsil müəssisələri haqqında" Əsasnamə, 4 mart 2004-cü il tarixli 24 saylı qərarı ilə "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında" Əsasnamə, AR Nazirlər Kabinetinin 2-4 mart 2000-ci il tarixli 58 saylı qərarı ilə "Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə, yeraltı işlərin siyahısı", 10 may 2002-ci il tarixli 77 saylı qərarı ilə isə "Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısını və evdə təhsilin təşkili Qaydaları təsdiq edilmişdir.

Bu istiqamətdə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri haqqında" AR Nazirlər Kabinetinin 7 noyabr 2001-ci il tarixli 179 saylı qərarı da xüsusi qeyd edilmelidir.

BMT Baş Assambleyasının 2002-ci ilin may ayında keçirilmiş 27-ci Sessiyasında dünya dövlətlərinin təmsilçiləri uşaqlar üçün yararlı dünya Qətnaməsini qəbul etdi, Qətnamədə aşağıdakı spesifik məqsədlər müəyyən edilmişdir: sağlam həyatın və keyfiyyətli təhsilin təmin edilməsi, zorakılıq, pis rəftar və istismarın qarşısının alınması və HİV/QİÇS-ə qarşı mübarizə.

Bununla əlaqədar qətnamənin əsas istiqamətləri üzrə AR-də həyata keçirilmiş işlər və ümumi vəziyyət barədə məlumat təqdim edilmişdir. Belə ki, həmin dövrdə AR-də əhalinin sayı 8532,7 min nəfərdi ki, onların da 2662,1 min nəfəri uşaqlardan ibarət idi. Yaş qrupları üzrə uşaqların sayı aşağıdakı qaydada müəyyənləşir: 0-5 yaş - 723,7 min, 6-11 yaş - 825,4 min, 12-18 yaş-1290,4 min.

Bu zaman bir sıra istiqamətlər üzrə dövlətimiz tərəfindən həyata keçirilən addımları qeyd etmək yerinə düşərdi. Məsələn, təhsil sahəsində müəyyən problemlər mövcud olsa da, dövlətin bu sahəyə yönəlmiş məqsədyönlü siyasəti nəticəsində, həmin problemlərin həlli üçün geniş imkanlar meydana gəlmişdir. Hal-hazırda, bu problemin həll edilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilməkdədir. Bu sahədə dövlətin aidiyyatı orqanlarının fəaliyyəti ilə yanaşı, Heydər Əliyev Fondunun gördüyü işlər müsbət nəticələr verməkdədir. Belə ki, son üç ildə kimsəsiz uşaqlar üçün xidmət göstərən 184 yeni məktəb tikilmiş və istifadəyə verilmişdir. 37 məktəb və 29 uşaq müəssisəsi tamamilə yenidən qurulmuşdur. Həmçinin, 325 məktəb yeni avadanlıqlarla təchiz edilmişdir. 2008-ci ilin dövlət büdcəsindən elm, təhsil və səhiyyə xərclərinə 3,4 milyon AZN ayrılmışdır.

2000-ci ildə Azərbaycanda bir yaşadək uşaqların ölüm sayı 20% (1896 nəfər) olduğu halda, 2006-cı ildə bu rəqəm 15,3% (1499 nəfər) olmuşdur. 2000-ci ilədək 5 yaşadək ölüm halları 963 nəfər, 2006-cı ildə isə 554 nəfər olmuşdur. 2000-ci ildən sonra ana və uşaqların sağlamlığı ilə bağlı bir sıra Dövlət Proqramı qəbul edilmişdir. Bunlardan ən əhəmiyyətlisi 2006-cı ilin 15 sentyabrında Nazirlər Kabineti tərəfindən qəbul edilmiş "Ana və uşaqların sağlamlığı ilə bağlı tədbirlər proqramı (2006-2010)" olmuşdur. Proqrama əsasən, respublikanın 8 bölgəsində perinatal mərkəzlər yaradılacaqdır. İlkin mərhələdə paytaxt Bakı və Gəncə şəhərində bu tip mərkəzlərin yaradılması nəzərdə tutulmuşdur. Digərləri isə, Naxçıvan, Lənkəran, Quba, Sabirabad və Şəkidə yerləşəcəkdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 12 iyul


## “Bakcell”in dəstəyilə əlilliyi olan insanlar üçün innovativ 3D protezləri hazırlanacaq

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti əlilliyi olan insanların reabilitasiya imkanları ilə təmin edilməsinə yönəlmiş növbəti innovativ layihəyə start verir.

İnnovasiyaları tək mobil telekommunikasiya sahəsinə deyil, insanların gündəlik həyatına da qatmaq niyyətində olan Bakcell “Reabilitasiya Akademiyası” adlı yeni layihənin icrasına dəstək göstərir. Layihə çərçivəsində Azərbaycanda ilk dəfə olaraq XXI əsrin ən innovativ texnologiyaları və xüsusilə 3D printerin köməyi ilə daha rahat reabilitasiya vasitələrinin hazırlanması (protez, ortez və digər köməkçi vasitələr) nəzərdə tutulub. Yeni layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilati dəstəyi ilə “Müstəqil Həyat Tərzi” Əlillərə Dəstək İctimai Birliyi tərəfindən həyata keçirilir.

ƏƏSMN-nin nəzdində fəaliyyət göstərən Protez-Ortopedik Reabilitasiya Mərkəzinin ekspertləri ilə birgə 3D printerin köməyi ilə mövcud baza protezləri təkmilləşdirilərək yeni 3D protezləri və digər köməkçi qurğuların test variantı istehsal ediləcək, eyni zamanda əl və ya ayağı amputasiya olunmuş insanlar üçün mexaniki protezlər hazırlanacaq. Həmçinin, layihə çərçivəsində Uşaq Serebral İflic (USİ) və digər ağır formalı əlilliyi olan uşaqlara köməkçi texniki vasitələrin istehsalı üçün emalatxananın yaradılması nəzərdə tutulub. Burada USİ olan uşaqlara bel və ayaq uçun fiksatorlar düzəldiləcək.

“Müstəqil Həyat Tərzi” Əlillərə Dəstək İB hazırlanmış protezləri sınaqdan keçirəcək və gələcəkdə onlardan daha geniş istifadə olunması ilə bağlı tədbirlər həyata keçirəcək. Azərbaycan Respublikasında ən genişmiqyaslı Korporativ Sosial Məsuliyyət Proqramlarından birini fəal şəkildə həyata keçirən Bakcell şirkəti, xüsusi qayğıya ehtiyacı olan insanların sosial rifahının yaxşılaşdırılması üçün daim yeni imkanlar axtarır və əlilliyi olan vətəndaşların və xüsusilə də, uşaqların cəmiyyətə uğurlu inteqrasiyasına kömək edə biləcək layihələri və xeyriyyə təşəbbüslərini dəstəkləyir.

## UNEC olimpiada qaliblərinə xüsusi təqaüd imkanı yaradır



Yeni tədris ilindən Azərbaycan Dövlət İqtisad Universitetini (UNEC) seçən beynəlxalq olimpiada və respublika fənn olimpiadaları qalibləri bir semestr ərzində 100 manat məbləğində universitetin xüsusi təqaüdünü əldə edəcəklər. UNEC-dən SİA-ya bildirilib ki, olimpiada qalibləri ilə yanaşı, qəbul imtahanlarında 600-dən yüksək bal toplayaraq UNEC-də təhsil alan birinci kurs tələbələri də xüsusi təqaüdə layiq görülürlər. Bundan başqa, UNEC-də hər kurs üzrə ən çox bal toplayan 15 tələbəyə 100 manat məbləğində “ikinci əlaçı təqaüdü” verilir.

Qeyd edək ki, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklərə əsasən, beynəlxalq olimpiada qalibləri istənilən ixtisas, respublika fənn olimpiadaları qalibləri isə qalib olduqları fənlərə uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul ediləcəklər.

## Ronaldo rəsmən “Yuventus”da!




Futbol üzrə Portuqaliya millisinin və “Real Madrid” komandasının hücumçusu Kriştiano Ronaldonun İtaliyanın “Yuventus” klubuna transferi rəsmən təsdiqlənib. Bu barədə Madrid klubundan məlumat verilib. Hər iki klub transfer müqaviləsinin detalları barədə ətraflı məlumat verməyib. Lakin İspaniyanın və İtaliyanın idman mətbuatı Ronaldonun transferinin 105 milyon avro müqabilində baş tutduğunu yazıb.

Xatırladaq ki, 2009-cu ildən “Real Madrid”in formasını geyən Kriştiano Ronaldo bu klubun heyətində ən çox qol vuran futbolçudur. Portuqaliyalı hücumçu əvvəlki rekordun sahibi olan Raul Qonsalesdən 303 oyun az keçirməsinə baxmayaraq, 438 qolla “Real”ın tarixinə ən məhsuldar futbolçu kimi düşüb. O, bu qolları 450 matçda vurub.

## Fransa millisi tarixində üçüncü dəfə finala yüksəlib



İyulun 10-da Rusiyada keçirilən futbol üzrə XXI dünya çempionatının ilk yarımfinal mərhələsinin oyunu keçirilib. Meydana Fransa və Belçika yığmaları çıxıblar. AZƏRTAC xəbər verir ki, “Sankt Peterburq Arena” stadionunda keçirilən görüşdə Fransa millisi Belçika yığmasını minimal hesabla məğlub edib (1:0).

Mundialın favoritləri sayılan hər iki komandanın qarşılaşmasında ilk dəqiqələrdən hər iki komanda bir neçə təhlükəli hücumlar yaradıb. Buna baxmayaraq, ilk hissədə hesab açılmayıb. Qarşılıqlı hücumlar şəraitində keçən ikinci hissədə hesabı fransızlar açıb. Antuan Qrizmanın künc ötürməsini Samuel Umtiti dəqiq baş zərbəsi ilə tamamlayıb - 1:0. Beləliklə, Fransa millisi dünya çempionatının final mərhələsinə vəsiqə qazanıb. Fransızların final mərhələsindəki rəqibi iyulun 11-də keçiriləcək İngiltərə-Xorvatiya görüşündən sonra bilinəcək. Fransa millisi tarixində üçüncü dəfə dünya çempionatının final mərhələsində oynamaq hüququ qazanıb.

## Bakıda keçiriləcək dünya çempionatında Bolqarıstanı beş cüdoçu təmsil edəcək



Bolqarıstan millisinin Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatı üçün heyəti açıqlanıb. Bakı mundialında 5 bolqarıstanlı cüdoçu tatami üzərinə çıxacaq. Məşqçilər korpusu dünya çempionatında kişilərin yarışında Yanislav Qerçev, Valentin Alipiyev (hər ikisi 60 kq), Bojidar Temelkov (66 kq) və Daniel Diçevə (100 kq) şans verəcək.

Qadınların mübarizəsində isə İvelina İlieva (57 kq) birincilik uğrunda mübarizə aparacaq. Qeyd edək ki, cüdo üzrə dünya çempionatı sentyabrın 20-dən 27-dək Bakıda keçiriləcək.



## “Barselona” PSJ-nin futbolçusu ilə anlaşdı

PSJ-nin yarımmüdafiəçisi Adrien Rabyo “Barselona”ya keçməyə yaxındır. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı xəbərə görə, Kataloniya klubunun idman direktoru Erik Abidal Fransaya gedərək, futbolçunun anası, həm də meneceri ilə görüşüb. Hətta tərəflərin müqavilə şərtlərində razılığa gəldiyi iddia olunur. Keçid baş tutsa, Rabyo yeni klubu ilə 5 illik sözləşmə imzalayacaq və ilinə 7 milyon avro qazanacaq.

Yarımmüdafiəçinin “Barselona”dan istəyi hücuma yaxın oynamaqdır. Rabyonun fikrincə, dayaq yarımmüdafiəçisi kimi öz potensialını tam göstərə bilmir. Futbolçunun özü ilə anlaşan “Barselona” bundan sonra PSJ-ni razı salmağa çalışacaq. Parislilər Fransa millisinin üzvünü heyətdə saxlamaq istəyirlər. Ancaq onun növbəti mövsüm azad agent kimi ayrılacağını nəzərə alan rəhbərlik gələn təklifləri də dəyərləndirməyə hazırdır.

## “Milan” ABŞ şirkətinin nəzarətinə keçdi



“Milan” ABŞ-ın investisiya korporasiyası “Elliott Management”in nəzarətinə keçib. Qol.az-ın İtaliya mətbuatına istinadən yaydığı xəbərə görə, klub xeyli borcu olduğu üçün bu çətin duruma düşüb. “Milan”ın hazırkı sahibi olan çinli iş adamı Li Yun Xun korporasiyaya olan borcunu vaxtında ödəyə bilməyib. Onun “Elliott Management”ə 32 milyon avro borcu olub. 2017-ci lin aprel ayından indiyədək ABŞ şirkəti “Milan”a 303 milyon avro kredit verib. “Elliott Management” klubda maliyyə sabitliyini təmin etmək üçün 50 milyon avro ayırmaq niyyətindədir.

## ELAN

Avstraliya Birliyinin vətəndaşı Wayne Alan Nyslor-un Azərbaycan Respublikasının ərazisində MYİ 0371116 nömrəli Müvəqqəti Yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500